www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 noyabr 2014-cü il Cümə axşamı № 278 (5987) Qiyməti 40 qəpik

**Xəbər**

## Mingəçevirdə iki qardaş kanalda boğuldu

yazısı səh.14-də

**Gündəm**

### Ağdam səmasında düşmənin helikopteri vuruldu - 3 ölü



Ölən hərbçilərdən biri mayordur; Pənah Hüseyn: "Erməni helikopterinin vurulması ciddi uğurdur"

yazısı səh.11-də

### İran prezidenti Azərbaycana gəldi

yazısı səh.2-də

*Zəfər Quliyev:*

### "Deputat korpusunda yeni simalar görə biləcəyik, amma..."

yazısı səh.5-də

### Peyntbol Federasiyasından İŞİD iddiasına reaksiya gəldi

yazısı səh.3-də

### Bakıdakı "burjuy" həbsxanasında nə baş verib?

yazısı səh.4-də

*Siyavuş Novruzov:*

### "Müsavat öz daxilində dialoq yarada bilmirsə, iqtidarla necə dialoq apara bilər?"

yazısı səh.6-da

### Elmar Məmmədyarov bu gün Strasburqda hesabat verəcək

yazısı səh.2-də

### Mülkü partladılan sahibkardan Əli Kərimliyə növbəti ağır ittihamlar...

yazısı səh.7-də

### Bakıdakı məxfi ABŞ-İran danışıqları - gerçəkmi?

yazısı səh.12-də

### Rusiyadakı böhranın Azərbaycana təsiri qaçılmazdır

yazısı səh.13-də

### Xankəndindəki girovların taleyi Allahın ümidinə qalıb

yazısı səh.12-də

### Qanunu pozan müğənnilər və sərt qanunlar...

yazısı səh.15-də

## Kreml bölgəmizə yönəlik son həmlə hazırlıqları içində

# RUSİYA AZƏRBAYCANA GÜRCÜSTANDAN "GİRƏ BİLƏR" - TƏHLÜKƏ

Bu iki Qafqaz ölkəsi çoxdan "birləşmiş qablar" kimidir - biri tutulsa, digəri də avtomatik ram olacaq; Avrasiya layihələrinin xilası üçün Putinin 5-6 ay vaxtı qalır, ancaq siyasi ömrü onun "zəfər çələngi" taxmasına yetəcəkmi?..



yazısı səh.10-da

## Səbayelin icra başçısı topun "ağzında"

Asif Əsgərov oğlunun törətdiyi avtoqəzanın badına gedir; onun övladının ölümünə səbəb olduğu yeniyetmənin ailəsi istintaqın nəticəsini gözləyirlər; saxtakarlıq sübut olunsa...

yazısı səh.5-də



### 90 MP 090-ın sahibi "Hafka"nın oğlu imiş

yazısı səh.4-də



### Müxalifət partiyalarının sədrləri Əli Həsənovla görüş üçün müraciət edəcək

yazısı səh.2-də



### Arif Hacılıdan sensasion açıqlamalar - "...bunu Azərbaycan hakimiyyəti..."

yazısı səh. 8 və 9-da

YENİ MÜSAVAT
N 278 (5987) 13 noyabr 2014

## Təbrik



*Müsavat Partiyasının başqanı Arif Hacılı partiya Məclisinin üzvü Hikmət Hacızadəni 60 illik yubileyi münasibətilə təbrik edib. Təbrikdə deyilir:*

*"Hörmətli Hikmət bəy!*

*Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə uzun ömür, möhkəm cansağlığı və demokratik inkişaf uğrunda apardığınız mübarizədə uğurlar arzulayıram.*

*Siz Azərbaycanda başlanan milli azadlıq hərəkatının fəallarından olmusunuz. Azərbaycan Xalq Cəbhəsinin yaradıcılarından biri, ilk İdarə Heyətinin üzvü, AXC-nin "Svoboda" qəzetinin redaktoru olmusunuz. Xalq Cəbhəsinin hakimiyyəti dövründə baş nazirin müavini və Azərbaycanın Rusiyadakı səfiri vəzifəsini bacarıqla həyata keçirmisiniz. Sonrakı mərhələdə Siz bütün qüvvənizlə demokratiya və insan haqları sahəsində biliklərin təbliği ilə məşğul olaraq, "Demokratiya haqqında 150 000 işarə", "İnsan Haqları - bəşəriyyətin əsas ideyası", "Demokratiya: Gediləsi uzun bir yol" (Demokratiya Antalogiyası) və başqa kitabların tərtib və nəşr olunmasındakı xidmətləriniz danılmazdır.*

*1993-cü ildən Müsavat Partiyasının və onun Məclisinin, eləcə də 2006-cı ilədək partiya Divanının üzvü olduğunuz müddətdə Müsavat Partiyasının Nizamnamə və Proqramının tərtib olunması və təkmilləşdirilməsində fəaliyyətiniz təqdirəlayiqdir.*

*Fəal həyat mövqeyiniz, işgüzarlığınız, prinsipiallığınız, səmimiyyətiniz və təvazökarlığınız partiyadaşlarımız və ictimaiyyət arasında Sizə böyük nüfuz qazandırıb. Əminəm ki, övladınız hər zaman Sizin kimi əqidəli bir müsavatçının övladı olması ilə qürur duyacaq və iftixar hissi keçirəcək.*

*Hörmətli Hikmət bəy!*

*Sizi bir daha yubileyinizlə əlaqədar ürəkdən təbrik edir, apardığımız bu müqəddəs mübarizədə uğurlar arzulayıram".*

## Pərviz Həşimlinin hökmü qüvvədə saxlanıldı

**Həbsdə olan jurnalist, hüquq müdafiəçisi Pərviz Həşimlinin barəsində çıxarılmış hökmdən verdiyi kasasiya şikayəti təmin edilməyib. Bu barədə onun vəkili Elçin Sadıqov facebook səhifəsində məlumat yayıb. E.Sadıqov qeyd edib ki, Pərviz Həşimlinin işi üzrə Bakı Apelyasiya Məhkəməsinin 07 iyul 2014 -cü il tarixli apelyasiya şikayətinə ilkin baxış iclasının qərarından verdikləri kasasiya şikayətinə baxılıb. Şikayətə Ali Məhkəmənin hakimi Hafiz Nəsibovun sədrliyi ilə noyabrın 12-də baxılıb: "Kasasiya şikayətimiz təmin edilmədi və Bakı Apelyasiya Məhkəməsinin 07 iyul 2014-cü il tarixli qərarı dəyişdirilmədən saxlanıldı".**

❑ M.MAHRIZLI

## Yadigar Məmmədliyə vəzifə verildi



Yadigar Məmmədli

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə yeni təyinat olub. Lent.az-ın məlumatına görə, Yadigar Məmmədli adıçəkilən mərkəzə mətbuat xidmətinin rəhbəri təyin edilib. Artıq bununla bağlı rəsmi əmr də verilib.**

Y. Məmmədli lent.az-a açıqlamasında faktı təsdiqləyib.

Qeyd edək ki, tanınmış jurnalist Y. Məmmədli Demokratik Jurnalistlər Liqasının sədridir.


"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


## Başsağlığı

**Milli Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbər Mirbaba Babayevə qardaşı Mirssayad ağanın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Müsavat Partiyasının başqanı Arif Hacılı partiyanın Divanı Mirbaba Babayevə qardaşı Mirssayad ağanın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

# Müxalifət partiyalarının sədrləri Əli Həsənovla görüş üçün müraciət edəcək



Əli Həsənov

**Noyabrın 12-də KXCP qərargahında Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinin toplantısı keçirilib. Toplantıda KXCP, Müsavat Partiyası, ADP, AXP, Azadlıq Partiyası, ALDP, VİP, Böyük Azərbaycan Partiyası və Aydınlar Partiyasının sədrləri iştirak edib. AXP sədri Pənah Hüseynin musavat.com-a verdiyi xəbərə görə, toplantıda bir sıra məsələlər müzakirə edilib və müvafiq qərarlar qəbul olunub: " Bələdiyyə seçkiləri ətrafında yaranmış vəziyyət müzakirə edilib.**

Bəyan edilib ki, Azərbaycan cəmiyyətində ümumiyyətlə seçkilərdə, xüsusilə bələdiyyə seçkilərində iştiraka marağın az olması, bir çox partiyaların bu prosesdə faktiki boykot taktikası götürməsi, eyni zamanda müxalifət partiyalarından qeydə alınmaq üçün müraciət edən şəxslərin qeydiyyatına kütləvi maneələr törədilməsi, təzyiqlər edilməsi nəzərə alınaraq , 23 dekabrda keçirilməsi nəzərdə tutulan bələdiyyə seçkilərində siyasi partiyaların iştirak dərəcəsi ölkədəki siyasi qüvvələr nisbətinin əksi kimi dəyərləndirilə bilməz".

**P.Hüseyn deyib ki, toplantıda siyasi məhbuslara azadlıq şüarı ilə siyasi partiya sədrlərinin piket keçirməsi barədə müzakirələr davam etdirilib və qərara bağlanıb:** "Qərara alındı ki, dekabrın 19-da, saat 12-də Prezident Administrasiyası, Baş Prokurorluq və Ali Məhkəmə qarşısında 11 nəfər qədər siyasi partiya sədrinin iştirakı ilə piket keçirilməsi barədə noyabrın 13-də Bakı Şəhər İcra Hakimiyyətinə rəsmi müraciət göndərilsin".

Toplantıda DİHM-ə daxil olan Mərkəzə daxil olan bir qrup siyasi partiyanın ölkədəki ictimai - siyasi vəziyyət barədə onları maraqlandıran məsələlərlə əlaqədar Prezident Administrasiyası İctimai-siyasi şöbəsinin müdiri Əli Həsənovla görüşməsi üçün müraciət etməsi müzakirə edilib. KXCP, AXP, ALDP, ADP sədrlərinin Əli Həsənovla görüş üçün müraciət etməsi haqqında məlumatları nəzərə alınıb.

Eyni zamanda DİHM adından Azadlıq Partiyasını sədri Ə. Oruc və ALDP sədri Fuad Əliyevin Avropa İttifaqının Bakı ofisində görüş keçirməsi ətrafında fikir mübadiləsi aparılıb.

❑ E.SEYİDAĞA

## Kamil Xəlilbəylini Müsavatdan çıxardılar

**Noyabrın 12-də Müsavat Partiyası Mərkəzi Nəzarət-Təftiş Komissiyasının növbəti toplantısı keçirilib.**

MNTK daxil olan şikayət ərizələrini müzakirə edərək, Kamil Xəlilbəylinin partiya sıralarından xaric edilməsi haqqında qərar qəbul edib. MNTK partiyanın nüfuzuna xələl gətirən, partiyanın ideoloji-siyasi xəttinə zidd olan fəaliyyətlə bağlı partiya üzvlərinə aşağıdakı məzmunda xəbərdarlıq edib:

- Müsavat Partiyası Mərkəzi Nəzarət-Təftiş Komissiyası partiyanın VIII Qurultayının qərarlarını tanımamaq, Müsavat Partiyasının müvafiq strukturlarının qərarlarına tabe olmamaq, partiya nizamnaməsində nəzərdə tutulmayan fraksiya və başqa adda paralel strukturlar yaratmaq cəhdlərinin təşkilatçılarını bu addımlardan çəkinməyə çağırır.

MNTK bu fəaliyyəti davam etdirən partiya üzvləri haqqında nizamnamə çərçivəsində müvafiq qərarların qəbul edilə biləcəyi barədə xəbərdarlıq edir.

## Hüquq müdafiəçisi təcridxanada aclığa başladı



Rasim Əlizadə

**İnsan Hüquq və Azadlıqlarının Müdafiə Təşkilatının sədri, hüquq müdafiəçisi Rasim Əlizadə saxlanıldığı Bakı İstintaq Təcridxanasında aclıq aksiyasına başlayıb. Bu haqda məlumatı "Yeni Müsavat"a R.Əlizadə özü verib. "Noyabrın 7-dən aclıq aksiyasına başlamışam. Tələb edirəm ki, mənə heç bir qeyd-şərtsiz bəraət verilsin. Əvvəlcə üzümə bir yol polisi əməkdaşını qoydular. Sonradan gördülər ki, ittihamı təsdiq edə bilmirlər. Xuliqanlıqla cəlb etmək istədilər. Buna da nail olmadılar.**

Dedilər ki, 10 nəfərə qarşı dələduzluq etmisən. Hər biri də eleyhinə ifadə verib. Dələduzluqla cinayət işi başlayıb Astara sakini Kamran Əliyevi zərərçəkən kimi yazdılar. Kamran Əliyevlə aramızda borc söhbəti var. Bunu onun özü də deyir. Amma nə ibtidai istintaqda, nə də məhkəmədə eşidən olmadı. Hakim Mirzə Xankişiyev ittihamın qondarma olduğunu bilə-bilə barəmdə 7 il azadlıqdan məhrum etmə hökmü verdi. Bütün bunlar mənim fəaliyyətimlə bağlıdır".

**R.Əlizadə deyib ki, noyabrın 7-də prezidentə, ədliyyə nazirinə müraciət ünvanlarıb:** "Noyabrın 7-də, məhkəmənin hökmündən əvvəl həmin müraciəti yazdım və göndərdim. Qeyd etdim ki, mənə ittiham aktı verilmir, hakim dediklərimin məhkəmə protokollarına salınmasına imkan vermir. Bu gün də ittiham aktını almamışam. Əgər məni qanuni məhkum edirlərsə, niyə ittiham aktını vermirlər? Nədən qorxurlar? İttiham saxta, hökm qanunsuzdur. Mənə bəraət veriləne qədər aclıq edəcəyəm".

Xatırladaq ki, Rasim Əlizadə Astara rayonunda bir vətəndaşı həbsdən azad etdirmək adı ilə onun ailəsindən 15 min manat alaraq dələduzluqda ittiham olunur. Onun barəsində Cinayət Məcəlləsinin 178.2.3-cü (dələduzluq) maddəsi ilə cinayət işi başlanaraq Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 7 il müddətinə azadlıqdan məhrum edilib.

❑ E.MƏMMƏDƏLİYEV

## MSDM-in Diskussiya Klubu fəaliyyətə başlayır

**Milli Strateji Düşüncə Mərkəzinin yeni layihəsi - Diskussiya Klubu fəaliyyətə başlayır. Diskussiya klubunun ilk tədbiri 17 noyabr saat 17-də başlayacaq. Tədbirin məhz Dirçəliş Günü - 17 noyabrda -meydan hərəkatının başlanmasının ildönümündə keçirilməsi təsadüfi deyil. Toplantıda Azərbaycanın müasir tarixində çox önəmli yeri olan Meydan hərəkatının (17 noyabr-5 dekabr 1988-ci il) səbəbləri, nəticələri və mahiyyəti haqqında professor İsmayıl Musa məruzə edəcək və müzakirələr aparılacaq.**

Tədbirin əvvəlində Meydan hərəkatı haqqında sənədli filmin nümayiş etdirilməsi nəzərdə tutulur. Tədbir media və maraqlananlar üçün açıqdır.

## Ukraynada azərbaycanlı sabiq deputatın meyiti tapıldı



**Ukraynanın Luqansk şəhərində bir ay əvvəl itkin düşmüş Luqansk üzrə keçmiş azərbaycanlı deputat Azad Vəliyevin meyiti tapılıb.**

Azərbaycanın Ukraynadakı səfirliyinin konsulluq məsələləri üzrə I katibi Asim Osmanov APA-ya açıqlamasında bildirib ki, bir ay əvvəl öldürülən meyit o qədər tanınmaz hala düşüb ki, yaxınları onun üzərindəki paltardan A. Vəliyev olduğunu biliblər.

A.Osmanov qeyd edib ki, hazırda meyit Luqanskda ekspertizaya təqdim edilib və ekspertizanın dəqiq cavabından sonra Azərbaycana göndəriləcək: "Onun yaxınları mənə bildirdilər ki, hadisənin oktyabrın əvvəlində olduğu ehtimal edilir və meyitin yalnız sümük hissəsi qalıb. Mərhumun qohumları onu üzərindəki paltarının qalıqlarından tanıya biliblər".

A.Vəliyev 2006 - 2010-cu illərdə Luqansk vilayət Şurasına seçilən yeganə azərbaycanlı deputat olub. Qeyd edək ki, A. Vəliyevin bir müddət əvvəl Luqansk yaxınlığında itkin düşdüyü bildirilmişdi.



## İran prezidenti Azərbaycana gəldi

Həsən Ruhani Bakıda 1 sutka qalacaq, iki ölkə arasında bir sıra mühüm sazişlər imzalanacaq

**İran İslam Respublikasının prezidenti Həsən Ruhani noyabrın 12-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib. İran prezidentinin təyyarəsi Bakı vaxtı ilə 16.45-də Bakı Hava Limanına eniş edib. Həsən Ruhanini hava limanında baş nazirin müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşılayıb.**

Prezident Həsən Ruhaninin Bakıda rəsmi qarşılanma mərasimi olub. Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda İran prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Prezidentlər görüşdükdən və birgə fotolar çəkildikdən sonra İlham Əliyev və Həsən Ruhani arasında nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş olub.

İran səfirliyindən əldə etdiyimiz məlumata görə, Həsən Ruhaninin səfəri iki gün davam edəcək və İran prezidenti noyabrın 13-də Azərbaycandan gedəcək. Səfər zamanı bir sıra sazişlərin imzalanması gözlənilir.

❑ KƏNAN



## Elmar Məmmədyarov bu gün Strasburqda hesabat verəcək

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Avropa Şurası Nazirlər Komitəsinin noyabrın 13-də keçiriləcək iclasında iştirak etmək üçün Strasburqa yola düşüb.**

Virtualaz.org Xarici İşlər Nazirliyinə istinadən bildirir ki, nazir E.Məmmədyarov iclasda Azərbaycan Respublikasının Avropa Şurası Nazirlər Komitəsinə sədrliyinin yekunlarına dair hesabat təqdim edəcək.

O, Azərbaycanın altı aylıq sədrlik müddətinin başa çatması ilə əlaqədar sədrliyi Belçikaya təhvil verəcək.

YENİ MÜSAVAT
N 278 (5987) 13 noyabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Peyntbol Federasiyasından İŞİD iddiasına reaksiya gəldi

## "Azərbaycan Peyntbol Federasiyasının "Baku Paintball Center" adlı üzv klubu və bu klubla heç bir əməkdaşlığı yoxdur"; hüquq-mühafizə orqanları da məsələyə münasibət bildirdilər

**Musavat.com saytı etibarlı mənbəyə istinadən Bakıda İŞİD-in təlim mərkəzinin olması haqda xəbər yayıb. Məlumata görə, Bakı şəhərinin Keşlə qəsəbəsindəki "Baku Paintball Center"dəki atıcılıq meydanı radikal qruplaşmalar tərəfindən təlim mərkəzi olaraq istifadə edilir.**

Adıçəkilən mərkəzdə vəhhabilərin İŞİD-çi dəstələri formalaşdırdıqları iddia olunur. Mənbənin bildirdiyinə görə, günün müəyyən zamanlarında sələfi təriqətinin nümayəndələri mərkəzin atıcılıq meydanında təlim keçirlər. Beləliklə də onlar gələcək döyüşlərə hazırlaşırlar.

Bu xəbər sosial şəbəkələrdə də müzakirəyə səbəb olub. "Baku Paintball Center"in facebook səhifəsində isə bu haqda deyilənlər cəfəngiyyat adlandırılıb və məsələyə belə izah verilib ki, təzəlikcə "Baku Paintball Center"in *(Bakı Peyntbol Mərkəzi-red.)* də yer aldığı Azərbaycan Peyntbol Federasiyası yaranıb və bundan dərhal sonra onlarla bağlı belə bir xəbər yayılıb. ""Baku Paintball Center"ın səhifəsində narahatlığa heç bir əsas olmadığı da yazılıb: "Narahat olmayın, hər şey öz qaydasındadır".

Əməkdaşımızın araşdırması zamanı bəlli olub ki, Peyntbol Federasiyasının prezidenti deputat Əli Hüseynlidir. Onun atıcılıqla məşğul olarkən fotosu da həmin səhifədə yerləşdirilib.

**Bundan əlavə, "Baku Paintball Center"in səhifəsində belə bir xəbər də cəmi bir gün öncə yerləşdirilib:** "Dostlar, artıq Peyntbol Federasiyamız yarandı! Azərbaycan Respublikası Peyntbol Federasiyasının Avropa Peyntbol Federasiyasına tam hüquqlu üzvlüyünü təsdiq edən üzvlük sertifikatı Avropa Peyntbol Federasiyasının vitse-prezidenti Viktor Toqayev tərəfindən Azərbaycan Peyntbol Federasiyasının prezidenti Əli Hüseynliyə təqdim edilmişdir. Azərbaycan Peyntbol Federasiyası eyni zamanda Avropa Peyntbol Federasiyasının Azərbaycandakı bütün rəsmi münasibətlərini tənzimləyən rəsmi orqan kimi tanınır. BÜTÜN PAİNTBALLÇILARI TƏBRİK EDİRİK!

Azərbaycan Peyntbol Federasiyası gələcəkdə Azərbaycan peyntbolçularının Avropa və dünya çempionatlarında iştirakını təmin etmək hüququ qazandı. Hər birimizə uğurlar!"

**Günün sonunda isə Azərbaycan Peyntbol Federasiyası müsavat.com-a İŞİD iddiasına yazılı münasibət göndərdi. Onların açıqlamasında deyilir ki, Federasiyanın adının müəyyən məsələlərdə hallandırılması dezinformasiyadır və həqiqətə uyğun olmayan məlumatlardır:** "Azərbaycan Peyntbol Federasiyasının "Baku Paintbal Centr" adlı üzv klubu yoxdur və bu klubla federasiyanın heç bir əməkdaşlığı olmayıb və hazırda da mövcud deyil. Bu qurumun Federasiya adından hər hansı bir fikir bildirməsi, hər hansı bir şərh vermək kimi bir hüququ yoxdur. Federasiya bu növ qurumların heç birinin fəaliyyətinə görə heç bir məsuliyyət daşımır. Ümumiyyətlə, Peyntbol federasiyası indiyədək mövcud olan və bu sahədə fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin fəaliyyətlərinin müvafiq dövlət orqanları tərəfindən monitorinqinin aparılmasını, qeyd edilən qurumların fəaliyyətinin qanunvericiliyin tələblərinə uyğunlaşdırılmasını, idman peyntbolunun inkişafının yalnız və yalnız müvafiq dövlət orqanlarının nəzarəti altında reallaşdırılmasını dəstəkləyir. Mülkü sahədə bu formada fəaliyyət Federasiya tərəfindən dəstəklənmir. Federasiya hərbi vətənpərvərliyin inkişafı məqsədi ilə mülkü deyil, dövlət orqanlarının idman klubları daxilində klubların inkişafını dəstəkləyir. Gələcəkdə mülkü və kommersiya məqsədi ilə fəaliyyət göstərən müxtəlif yönümlü mülkü qurumların fəaliyyətini məqsədə müvafiq hesab etmir. Federasiya ümumiyyətlə, yeni yarandığından hələ heç bir klubu öz üzvlüyünə qəbul etməyib. Müvafiq normativ baza hazırlandıqdan sonra bu prosesə qanunvericliyin tələblərinə uyğun şəkildə riayət edilməklə baxılacaq. Mənşəyi məlum olmayan heç bir qurumla federasiya əməkdaşlıq etmir. Musavat.com saytında getmiş şəkil *(səhifədə yerləşdirilib-red.)* adıçəkilən klubda deyil, Milli Bayraq və Konstitusiya gününə həsr edilmiş hüquq-mühafizə orqanları və silahlı qüvvələr arasında keçirilən respublika peyntbol çempionatında Qəbələ şəhərində çəkilmiş şəkildir. Qəbələ şəhərində keçirilmiş tədbirin hətta anonsunu "Yeni Müsavat" qəzeti də öz növbəsində verib və buna görə qəzetə minnətdarlığımızı bildiririk.

**Qeyd edilən linkdə bu anonsla tanış ola bilərsiniz:**

Qeyd edilən şəkilin çəkildiyi çempionat barədə KİV-də kifayət qədər məlumat verilib. Federasiyanın heç bir nümayəndəsi "Baku Paintball Center"də olmayıb və heç bir əməkdaşlıqdan söhbət gedə bilməz. Federasiyanın rəsmi facebook səhifəsində federasiyanın fəaliyyəti barədə rəsmi məlumatlar hər bir kəsə açıqdır.

Federasiyanın məlumatlarını isə yalnız federasiyanın rəsmi facebook səhifəsində gedən məlumatlar təşkil edir:

Peyntbol Federasiyası 28.02.2014 Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış və yeni yaranmış federasiyadır. Aprel 2014-cü il tarixindən Avropa Peyntbol Federasiyasına üzv olub. Federasiya öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyi əsasında müvafiq dövlət orqanları ilə əməkdaşlıq şəraitində qurur.... Mətbuatda gedən bu yanlışlığın aradan qaldırılmasını xahiş edirik. "Yeni Müsavat" qəzetinin kollektivini yaxın günlərdə KİV üçün keçiriləcək peyntbol turnirində öz komandası ilə iştirak etməyə və Federasiyanın fəaliyyəti ilə daha yaxından tanış olmağa dəvət edirik... Hörmətlə, Azərbaycan Peyntbol Federasiyası". *(Federasiyanın bəyanatının tam mətni müsavat.comda yerləşdirilib-red.)*

Peyntbol Federasiyasının bu açıqlamasından sonra "Baku Paintball Center"in federasiyaya heç bir aidiyyəti olmadığı bəlli olur, eyni zamanda onların üzərindəki şübhələr də aradan qalxmamış qalır. Obyektivlik naminə qeyd edək ki, bu qurumun Fikrət Məmmədov adlı nümayəndəsi də mətbuata açıqlamasında mərkəzin dini qrupların əlində olmadığını deyib. Ancaq eyni zamanda bu haqda bizi bilgiləndirən mənbə də sağlamdır və o öz iddiasının doğru olduğunu israrla bildirir.

**Sonda onu da qeyd edək ki, DİN və MTN də məsələyə dair açıqlama veriblər. DİN-in mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov publika.az-a açıqlamasında məsələni araşdıracaqlarını deyib:** "Bu xəbərdən məlumatımız var. Məsələ ilə bağlı maraqlanacağıq".

**MTN-in İctimai Əlaqələr Mərkəzindən isə ANS-in sorğusuna cavab olaraq bildirilib ki, yayılan informasiyaların heç bir əsası yoxdur:** "Azərbaycan Respublikasının milli maraqlarına və təhlükəsizliyinə mümkün təhdidlərin qarşısının alınması üçün bütün zəruri qabaqlayıcı tədbirlər həyata keçirilir. Əməliyyat şəraitinə nəzarət olunur".

❑ **T.ƏHMƏDLİ**





# EU-14-0008
10th July 2014, France

CERTIFICATE
ISSUED TO
AZERBAIJAN REPUPBLIC PAINTBALL FEDERATION

*President of the Federation:* Dr. Ali Huseynli
*Contact details:*
Address: Akademik Hasan Aliyev st, 5A, Kepez plasa, floor 3, BAKU, AZ 1005, AZERBAIJAN
Phone: +994 12 5644235, Fax: +99412 5644235
E-mail: nadir.adilov@gmail.com

Hereby we confirm that AZERBAIJAN REPUPBLIC PAINTBALL FEDERATION is a member of the European Paintball Federation, holds paintball competitions and represents interests of European Paintball Federation in Azerbaijan.

EUROPEAN PAINTBALL FEDERATION
1 rue de la Libération, 94510 Queue-en-Brie, France
R.N.A.: W942005003
Reg.date: 16.01.2014, France
Phone: +33 145 761871
Email: vika@epbf.info
www.epbf.info

EPBF

President of the European Paintball Federation,
Laurent Hamet

# Yallı elmləri doktoru



Aygün MURADXANLI

**İki gün idi Azərbaycan elmi ictimaiyyətinin başı möhkəm qarışıq idi - elm festivalı keçirirdilər. Bu haqda xəbəri oxuyanda möhkəm güldüm. Elmin konfransı olar, simpoziumu olar, festival nədir? Festival daha çox incəsənət sahələrinə aid olmurmu - kino festivalı, teatr festivalı, musiqi festivalı? Elmlər festivalda nə edəcəkdilər - dəqiq elmlər, humanitar elmlər, təbiət elmləri çeçələ barmaqlarını birləşdirib yallı gedəcəkdilər?**

Xəbərin yayılmasından çox keçmədi sosial şəbəkələri festivaldan şəkillər bürüdü. Şəkillər nə şəkillər? Xalça-palazın üstündə nehrə, yunəyirən, kirkirə, oxlov-yuxayayan, fətir, onların yanında milli geyimli yeniyetmələr, xan-bəy-xanım paltarları, stendlər, kitablar, broşürlər. Bircə boyanmış yumurta ilə səməni də olsaydı, deyərdin, Novruz bayramı gəlib, xəbərimiz yoxdur. Bəs elm hanı? Şəkilləri ha ələk-vələk elədim, elmi tapa bilmədim. Ancaq şəkillərə baxa-baxa əmin oldum ki, bu festivalın təşkilatçısı kimdirsə, yaman yeyib-içən, əylənən adamdır. Hətta bir ara düşündüm ki, adam professor olsa da restoran işlədir - Məhərrəm ayında bekarçılıqdan festival keçirir. Beynimin bu ideyanı hazırlamasına festivalda Azıxantrop qiyafəli klounun olması təkan verdi. Azıxantrop səy-səy o tərəf-bu tərəfə gəzib festivala gələnlərlə şəkil çəkdirirdi. Ən dəhşətlisi isə o idi ki, elm festivalına gələnlər də kloun havasına girmişdi - Azıx adamı ilə özünü tarixə həkk elətdirənlərdən biri dilini çıxarır, biri gözünü bərəldir, o birisi "can qardaş" deyib qucaqlaşırdı. Şaşırmışdım.

Ancaq bu hələ kulminasiya deyildi. Bir azdan yallı haqqında proqnozum doğrulacaq, festivaldakılar yallı gedəcəkdilər. Əsl kulminasiya! Təxminən belə - Azərbaycan Milli Elmlər Akademiyasının yallı elmləri üzrə fəlsəfə doktorları və yallı elmləri doktorları festivala rəng qatdılar, düşdülər ortaya, şıdırğı rəqs elədilər. Bağışlayın, sonuncu cümləm bir az elm kontekstindən çıxıb şou-biznes xəbərinə oxşadı, ancaq inanın, günah məndə deyil. Azərbaycanda hər işi o qədər şoulaşdırıblar ki, hətta elm haqqında da sonadək ciddi yazmaq olmur.

Azərbaycanda ən bərbad gündə olan sahə elə elmdir. Elmin heç bir sahəsində yüksəliş demirəm, tərpəniş də demirəm, heç mıqqıldama da yoxdur. Nəyi bayram edirlər? AMEA-da 150-200 manata ömür çürüdənlərin gününü, ildən-ilə dissertasiya müdafiəsi "haqq"ının bahalaşmasını və elm sahəsində monopoliyalı bazarın oturuşmasını, yoxsa yüksək çinli məmurların katibələrinin humanitar elm sahələrinə qəfil transferini? Yaşayan böyük alimlərimiz varkən heç kimin bu elm festivalı deyilən rəzalətə səsini çıxarmaması o deməkdir ki, festival tapşırığı yüksək yerdən gəlib.

Bu gün Azərbaycan elmində dünyaya çıxışı olan iki alim var. Biri tarixçi-alim, professor Cəmil Həsənli, digəri texnika elmləri professoru Rafiq Əliyevdir. Cəmil Həsənlinin əsərləri ABŞ-ın ünlü universitetlərində dərslikdir, Rafiq Əliyev qeyri-səlis məntiq nəzəriyyəsinə görə ABŞ-ın ən yüksək elmi mükafatını "Dünya elmində ömürlük nailiyyət" ödülünü ("Lifetime achievement award") qazanıb. ABŞ dünyanın ən böyük beyin mərkəzlərindəndir. Bu alimlərin hər ikisi müxalifətdədir. Cəmil müəllim universitetdən öz istəyi ilə uzaqlaşıb. *(Elm mühiti sağlam olan elm ocağından bir alim niyə könüllü ayrılsın ki?)*, Rafiq Əliyev isə Neft Akademiyasından rektorun əmri ilə çıxarılıb...

Əslində Azərbaycan elmi üçün festival yox, yuğlama keçirmək lazımdır. Bilirsiz də yuğlama nədir? Qədim türklər biri vəfat edəndə meyiti ortaya qoyub onun yaxşı əməllərindən danışıb ağlayarmışlar, ölünün adamlığından, igidliyindən söhbət açıb bu dünyadan o dünyaya xoş duyğular içində köçməsi üçün ortam yaradarmışlar. Azərbaycan elmi xalis yuğlamalıqdır. İldə bir dəfə yığışıb rəhmətlik Ziya Bünyadovdan, Azad Mirzəcanzadədən, bir az da uzağa gedib Yusif Məmmədəliyevidən danışıb ağlamaq lazımdır. Azərbaycan elmi üçün bir Fatiha oxuyaq biz də dağılışaq.



# Hətta ali qanunu olsa belə....

**Hüseynbala SƏLİMOV**

**Konstitusiya günü daha təmtəraqlı, daha da əlamətdar ola bilərdi. Amma parlamentində çox asanlıqla "Lazım gələrsə konstitusiyanı dəyişərik!" deyilən ölkədə bu gün bəlkə də elə məhz bu cür də olmalı idi...**

Bir dəfə soruşmuşdular ki, Azərbaycanı hüquqi dövlət hesab etmək olarmı?

O vaxt cavab verərkən bir az tərəddüd etdik, çünki demək olmazdı ki, ölkədə tamam hüquqi nihilizm hökm sürür, yox, belə deyil...

Üstəlik, konstitusiyanın əhəmiyyətli hissəsi insanın və vətəndaşın hüquq və azadlıqlarına həsr olunub...

Amma bütün bunlara rəğmən yenə də deyə bilmədik ki, Azərbaycanda hüquqi dövlət var...

Ona görə ki, hüquqi dövlətdə hakimiyyət əsas insan haqları və hüquqları ilə məhdudlaşır.

Ona görə ki, hüquqi dövlətdə hüququn aliliyi və hakimiyyətin bölünməsi prinsipi təsbit olunur...

Kimsə deyə bilər ki, bunlar hamısı formal olaraq konstitusiyada var. Amma məsələ də elə bundadır ki, formal hüquqi dövlət olmur...

Dövlət ya hüquqi olur, ya da ki, olmur... Əgər soruşsaydılar ki, bu hakimiyyəti ən çox nədə qısqanırsınız, düşünmədən cavab verərdik ki, məhz konstitusiyanın qəbul olunmasında - ali qanun ilk dəfə indiki hakimiyyətin dövründə, 1995-ci ildə qəbul olundu.

Onu bir az əvvəl qəbul etmək olardımı? Olardı. Amma vaxt çox az idi. Belə qanunların qəbulu üçün vaxt lazım gəlirmüzakirələr olmalıdır, cəmiyyət də bu prosesə cəlb edilməlidir...

İndiki hakimiyyət ilk dəfə konstitusiya qəbul edilərkən müzakirələr təşkil etdimi? Cəmi bir müzakirə oldu. Ora ziyalıların bir qismi dəvət almışdı. Mövzu da dilin adı ilə bağlı idi... Bəlkə də bu da təsadüfi deyildi. Dil məsələsi ali qanunun digər qaranlıq məqamlarını kölgədə qoydu...

Nəticədə də əsas dövlət qurumlarının-parlamentin və məhkəmənin üstünə birdəfəlik "kölgə" düşdü, onlar hələ də bu "kölgə"dən-icra hakimiyyətinin möhtəşəm kölgəsindən çıxa bilmirlər.

Təsəvvür edin, parlamentin spikeri fəxrlə deyir ki, onun başçılıq etdiyi dövlət institutunun qəbul etdiyi qanunların böyük əksəriyyəti məhz prezident aparatından daxil olur...

Bircə o çatışmır ki, məhkəmələr də etiraf etsinlər ki, onların qəbul etdiyi mühüm qərarlar da elə həmin instansiyadan-prezident aparatından daxil olur. Bunu da etiraf etsəydilər hamı birdəfəlik rahat nəfəs alardı...

Amma bu, ali icra hakimiyyətinin konstitusiyanın başına açdığı bütün oyunlar deyil...

Təsəvvür edin, 21 ildə ali qanunu iki dəfə dəyişdilər. Prezident seçkisi ilə bağlı ikidəfəlik məhdudiyyəti götürdülər, guya qanunvericilik təşəbbüslərinin bazasını genişləndirdilər...

İndi çox az adam konstitusiyaya baxır. Bəlkə də onu yalnız Konstitusiya Məhkəməsinin hakimləri və əməkdaşları vərəqləyirlər.

Amma hiss olunur ki, onlar da bunu diqqətlə etmirlər, çünki bu qurumun da qərarları ilə ali icra hakimiyyətinin ovqatı arasında çox böyük sinxronluq var - Avropa İnsan Haqları Məhkəməsinin bir sıra siyasi məhbusların azad olunması haqda qərarı olsa da Konstitusiya Məhkəməsi hələki bu qərarlara "hə" deməyə tələsmir...

Konstitusiya indi məktəblərdə də tədris olunur. Amma nə olsun ki? Sovetlərin vaxtında da belə idi, hətta ayrıca hüquq fənni tədris olunurdu...

Bəs əsl siyasi islahatları nədən başlamaq lazım gələrdi? Nə qəribə olsa da, yenə də konstitusiyanın adını çəkəcəyik, çünki o mexanizm ki, Azərbaycanın Əsas Qanununun mayasını təşkil edir, o, düzgün qurulmayıb-parlamentin səlahiyyətlərinin və məhkəmələrin müstəqilliyinin artırılmasına ehtiyac var...

İndi konstitusiya günü yetərincə qeyd olunmur. Halbuki gələn il onun-müstəqil Azərbaycanın ilk konstitusiyasının 20 yaşı olacaq. Bəlkə də elə bu da təsadüfi deyil. Hakimiyyət üçün "əlamətdar" günlər o qədər çoxdur ki, ümummilli atributlara yer qalmır.

Onların "məntiq"indən belə bir nəticə hasil olur ki, vacib olan, qeyd edilməli hansısa mühüm hüquqi sənədlərin qəbulu yox, kimlərinsə hakimiyyətə gəldiyi gündür, çünki kimsə hakimiyyətə gəlməsəydi biz nəinki hüquqi sənədlər qəbul edə bilərdik, bəlkə heç özümüz də olmazdıq...

Ona görə ki, özünün hətta fiziki mövcudluğunu, varlığını da kimlərləsə bağlayan cəmiyyətlərin nəinki ali, heç adi qanunları da olmur. Məşhur bir filmdə deyildiyi kimi: "Detdom" uşaqlarının familiyası olmur, naçalnik!"...

# Bakını qarışdıran "avtoş"la bağlı şok xəbər

## 90 MP 090-ın sahibi "Hafka"nın oğlu imiş; Hafiz Məmmədov oğlunu ictimai qınaqdan yayındırmaq üçün hiyləyə əl atıb

**Bakının Mərdəkan qəsəbəsində bahalı maşını ilə avtoşluq edərək gündəmə gələn Rauf adlı gənclə bağlı yeni məlumat almışıq. Qaynağımız deyib ki, həmin şəxs əslində "Hafka" kimi tanınan neft maqnatı Hafiz Məmmədovun oğludur. Sadəcə, bu detalın gizlədilməsi üçün Ramiz Hüseynov adlı şəxsin adından açıqlama yayılıb. Bu həmin gəncdir ki, Az 90 MP 090 nömrə nişanını bir neçə bahalı avtomobilin üstünə vurub və bahalı maşınlarını qarşısında yarıçılpaq xanımların fotolarını çəkməklə sosial şəbəkələrdə yaymışdı.**



Rauf

Ötən ayın əvvəlində onun dəbdəbəli həyat tərzini əks etdirən foto və videolar yayılandan sonra Raufun atası adından açıqlama yayıldı. Heç kimin gözləmədiyi halda Ramiz Hüseynov adlı şəxs Raufun atası olduğunu iddia edərək etirafda bulundu. Dedi ki, təxminən bir il əvvəl bu şəkilləri görüb: "Hətta bu müzakirələr açılmamışdan öncə oğlumu ciddi tənbeh etmişəm. Oğlumu institutu bitirikdən sonra hərbi xidmətə yola salmışam. Hazırda Rauf bölgələrin birində hərbi xidmətdədir. Bu kimi həyatdan tam olaraq uzaqdadır. Qayıtdıqdan sonra da bu həyatdan uzaq olacaq. Bu şəkillər o, tələbə olarkən çəkilib. Bu fəxr olunası bir hal deyil. Mən özümün və ailəmin adından bütün oxuculardan və xalqdan üzr istəyirəm. Biz o şərhlərdə yazıldığı kimi, etikadan kənar hərəkətlərə yol verən bir ailə deyilik. Biz ölkəni sevən, onun qanunlarına tabe olan bir ailəyik. Oğlum cavan olub, böyük səhv edib. Bu səhvinə görə onu tənbeh etmişəm, cəzalandırmışam. Fotolarda görüntülənən maşınlar eyni vaxtda bizim ailədə olmayıb. Bu maşınlar müxtəlif vaxtlarda alınıb, satılıb. İndi bu avtomobillər bizdə yoxdur. Oğlumun adından sosial şəbəkələrdə profillər açılır, xahiş edirəm bu kimi səhifə və profillərə inanmayın. O, hərbi xidmətdədir və internetə çıxışı yoxdur".

Etiraf-açıqlamanı hazırlayanlar cəmiyyətin reaksiyasını hesablamışdılar. Oxuyandan sonra Raufun tərbiyəli bir ailənin üzvü olduğu, sadəcə, cavanlıq səhvi etdiyi qənaəti hasil olurdu. Görünür, bunu həmin açıqlamanı hazırlayanlar hesablamış və mətbuatın bundan sonra mövzuya baş vurmayacağını da nəzərə alıblar. Amma bəzi məqamlar bu gün də qaranlıq olaraq qalır.

Maraqlıdır ki, Raufun atası kimi özünü təqdim edən şəxsin fotosu yayılmadı. Onun kimliyi, hansı bizneslə məşğul olduğu da açıqlanmadı. Raufla bağlı sirli məqam təkcə bu deyil. Bu gün də onun maşınlarının üstünə bağladığı Az 90 MP 090 nömrə nişanı ilə bağlı müəmma qalır.

Yada salaq ki, Raufun "avtoş"luğu əks olunan foto və videolarda maşınlarına eyni nömrə nişanının - Az 90 MP 090 bağlandığı diqqəti çəkmişdi.

Dövlət Yol Polisi İdarəsindən isə bildirmişdilər ki, belə bir nömrə nişanı ümumiyyətlə qeydiyyatda deyil. Bu isə nömrənin saxta olduğunu deməyə əsas verir. Əgər saxta deyilsə, Raufa həmin nömrəni kim verib? Bəlkə o, həmin nömrə nişanını maşınının üstünə bağlayıb bank yarmağa gedəcəkdi?

Məlumdur ki, Azərbaycanda avtomobillərə nömrə nişanlarını yalnız DYP-də verirlər. Bu qurumdan belə nömrənin qeydiyyatının olmadığını açıqlayıblar.

Qanunla Raufa nömrə nişanının saxtalaşdırmasına görə cinayət işi başlanmalı idi. Bu gün belə bir cinayət işinin başlanması haqda məlumat yoxdur. Qeydiyyatda olmayan nömrə nişanının onun bir-birindən bahalı maşınlarında haradan peyda olduğu bilinmir.

Mövzuya qayıdacağıq.

❑ **E.HÜSEYNOV**

# Bakıdakı "burjuy" həbsxanasında nə baş verib?

## Dustaqlar arasında davanı rəsmilər də təsdiqləyir, amma...

**Bakının məşhur həbsxanasında dustaqlar arasında ciddi qarşıdurma olub. Milli.az xəbər verir ki, Nizami rayonu ərazisində yerləşən 6 saylı cəzaçəkmə müəssisəsində məhkumlar arasında güclü dava düşüb. Dava zamanı məhkumlar iki dəstəyə bölünüblər. Bir tərəfdən 12, qarşı tərəfdən isə 5 nəfər bir-birinə girib. Davanı sakitləşdirmək üçün müəssisə əməkdaşları işə qarışıblar. Uzun sürən davanı çətinliklə yatırmaq mümkün olub. Dava zamanı məhkumlarla yanaşı, müəssisə əməkdaşları da xəsarət alıblar.**



Ədliyyə Nazirliyinin Penitensiar Xidməti 6 saylı cəzaçəkmə müəssisəsində baş vermiş hadisə ilə bağlı məlumat yayıb.

**Xidmət rəisinin mətbuat məsələləri üzrə köməkçisi Yaşar İsakovun** APA-ya verdiyi məlumata görə, noyabrın 8-də həbsxanada cəza çəkən bir qrup məhkum arasında məişət zəminində münaqişə baş verib: "Münaqişənin qarşısı qısa müddət ərzində müəssisə və Penitensiar Xidmətin Baş İdarəsinin əməkdaşlarının səyi nəticəsində alınıb. Daxili intizam qaydalarını pozmağa cəhd edən məhkumlara bir daha qanunun tələbləri izah olunub. Müəssisənin normal iş ahənginin pozulmasına yönələn hər hansı hərəkətlərin qarşısının qətiyyətlə alınacağı bildirilib. Münaqişə zamanı müəssisədə cəza çəkən məhkumlar və əməkdaşlar arasında xəsarət alan olmayıb. Hadisə ilə bağlı toplanmış materiallar hüquqi qiymət verilməsi məqsədilə Bakı şəhər Nizami Rayon Prokurorluğuna göndərilib" .

Maraqlıdır ki, rəsmi xəbərdə dustaqların nə səbəbdən dalaşdıqları və bu davada hansı məhkumların iştirak etdiyi barədə konkret adlar yoxdur. Hər halda, baş verən hadisənin prokurorluqda araşdırılması dava ilə bağlı cinayət işinin açılacağı ehtimalını yaradır.

6 saylı həbsxanada əsasən imkanlı şəxslər cəza çəkir. Xəbərlərə görə, Bakı şəhərində olan cəzaçəkmə müəssisələri sırasında ən bahalı "zon" 6 saylıdır. İddialar var ki, bu zona heç bir dustaq pulsuz düşə bilməz. 6 saylı həbsxananın qiyməti 1000-2000 manatdır ki, bura ancaq "burju" dustaqlar düşə bilir.

Qeyd edək ki, 6 saylı cəzaçəkmə müəssisəsi ümumi rejimlidir. Nizami rayonunda, Böyük Şor qəsəbəsində yerləşir.

Keçmiş iqtisadi inkişaf naziri Fərhad Əliyevin qardaşı, "Azpetrol" şirkətinin keçmiş prezidenti Rafiq Əliyev də uzun müddət burada saxlanılıb. Bu ilin fevralında bu cəzaçəkmə müəssisəsinin rəisi fəaliyyətindəki nöqsanlara və kobud qanun pozuntularına görə tutduğu vəzifədən kənarlaşdırılıb.

Amma təbii ki, burada imkansız məhbuslar da var. Son aylar bu həbsxanada baş verənlər tez-tez medianın gündəminə gəlir. Məsələn, ötən ilin oktyabrında məhbus anası Qızxanım İsmayılova oğlu Natiq Güləliyevə bu həbsxanada verilən işgəncə faktını açıqlamışdı. Məhkum anası demişdi ki, həbsxanada oğlunu günahsız yerə, həm də paltarsız 11 saat ayaqüstə beton döşəmənin üstündə dayanmağa məcbur edib, daha sonra "kars"a salıblar.

Qadının dediyinə görə, məhbusları "Quantanamo həbsxanasında olduğu kimi, bir-bir aparıb işgəncə verir, sonra kameraya qaytarırlar".

"Siyasi Məhbuslarsız-Azərbaycan" Alyansı ölkədə məhbusların durumuna dair son hesabatında həbsxanalarda korrupsiya və rüşvət faktlarından bəhs edib. Hesabatda bildirilir ki, dustaqlar telefon danışığı, idman, görüşə çıxmaq üçün rüşvət verməlidirlər. Sənəddə dustaqlara işgəncə faktları sadalanır, amma bu faktların araşdırılmadığı qeyd edilir. Hesabatda həmçinin dustaqlara işgəncə verilməsində "fərqlənən" 10-dan yuxarı şəxsin adları çəkilir. Bu sırada həbsxanaların keçmiş və indiki rəislərinin, nəzarətçilərin adları keçir.

❑ **Xəbər xidməti**

YENİ MÜSAVAT
N 278 (5987) 13 noyabr 2014

# Hakimiyyətin gələnilki parlament seçkisinə baş məşqi

**Təxminən 40 gündən sonra, dekabrın 23-də Azərbaycanda bələdiyyə seçkiləri keçiriləcək. Ancaq ölkədə seçki ab-havası demək olar ki, mövcud deyil. Demək olar ki, ifadəsini şərtləndirən yeganə əlamət isə rəsmi MSK xəbərləri və küçələrdə rast gəlinən az saylı seçki elanlarıdır. Bundan başqa seçkini xatırladan heç nə hiss olunmur.**



# İqtidar 2015 seçimlərinin anonsunu verir

## Dekabrın 23-də Azərbaycanda bələdiyyə seçkisi olacaq; ölkədə bu prosesin hiss olunması maksimum əngəllənir; 1 il sonra Milli Məclisə keçiriləcək seçkilərin də səs-küysüz başa vurulması planlaşdırılır; **Zəfər Quliyev:** "Deputat korpusunda dəyişikliklər baş verə bilər. Orada yeni simalar görə biləcəyik, amma..."

Qeyd edək ki, bələdiyyə seçkiləri daha çox namizədin iştirakı və yerli seçkilər olaraq əslində kütləviliyi ilə seçilir. MSK-nın məlumatına əsasən Azərbaycanda 118 dairədə keçiriləcək bələdiyyə seçkilərində 1 607 bələdiyyə üzrə 15 035 üzv seçiləcək. Son məlumata görə, artıq 21 min nəfər namizəd qeydə alınıb. Lakin Azərbaycanda bunun əksi müşahidə olunur. Artıq sayca 4-cüsü keçiriləcək bələdiyyə seçkiləri xalqın marağında deyil. Baxmayaraq ki, adətən dünya ölkələrində bələdiyyə seçkiləri daha coşqulu olur.

Əlbəttə, Azərbaycanda bələdiyyə seçkilərinin bu şəkildə sönük və diqqətdən kənarda olmasının bir səbəbi bələdiyyə institutunun tam olaraq formalaşmaması, səlahiyyətlərinin az olması, eləcə də bələdiyyələrin icra hakimiyyətlərinin əlavəsi kimi fəaliyyət göstərməsi ilə yanaşı, həm də digər seçki prosesində olduğu kimi bunda da nəzarətin tamamilə hakimiyyətin ixtiyarında olması ilə bağlıdır. Yəni seçicilər, eləcə də siyasi qüvvələr bilir ki, istənilən halda bələdiyyələri formalaşdıran seçkini hökumət qurumları keçirəcək və hakimiyyətin istədiyi şəxslər qutudan çıxacaq.

Ancaq bələdiyyə seçkilərinin bu şəkildə təşkil olunması və sönük keçirilməsi daha bir həqiqəti ortaya qoyur. Bulki bələdiyyə seçkiləri hazırlıqları, müxalifətin kənarda saxlanılması onu göstərir ki, hakimiyyət gələnilki parlament seçkilərində də analoji vəziyyəti davam etdirəcək. Yəni istənilən halda bələdiyyə seçkilərini "ənənəvi" qaydada keçirən hakimiyyətin bir ildən sonra 180 dərəcə dəyişiklik edərək siyasi açılım həyata keçirməsi inandırıcı görünmür. Çünki gələnilki parlament seçkilərində hansısa islahatlara hazırlaşan hakimiyyət bunun ilk addımını bələdiyyə seçkilərində atmalı idi. Ancaq bələdiyyə seçkilərinin bu qədər basqı və siyasi təzyiqlə keçirilməsi ilə hakimiyyətin gələn il ədalətli seçki keçirməsi real görünmür.

**Mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlama verən politoloq Zəfər Quliyev bələdiyyə seçkilərinin gələnilki parlament seçkilərinin "xəbərçisi" olduğu fikrini təsdiqləyir. Politoloqun fikrincə, hakimiyyətin seçki sistemində ciddi islahatlara gedəcəyi, demokratik seçki keçirəcəyi inandırıcı deyil:** "Əslində mən əvvəldən optimist mövqeləri bölüşmürdüm. Bəzi dairələrdə yaxın illər üçün bir optimist yanaşma vardı ki, iqtidar siyasətini dəyişir, ciddi islahatlara keçəcək. O cümlədən də parlament seçkilərinin başqa cür keçiriləcəyi ilə bağlı fikirlər vardı. Mən şəxsən bədbin də deyiləm, lakin bu optimizmi də bölüşmürəm. Hesab edirəm ki, parlament seçkiləri zamanı yeniliklər ola bilər, ancaq ciddi, seçki texnologiyasının, metodologiyasının dəyişdiriləcəyini gözləmək düzgün olmaz. Ona görə ki, hakimiyyət hələlik öz siyasətini ciddi şəkildə dəyişmək niyyətində deyil. İqtidar yaxın illər ərzində hakimiyyəti öz əlində saxlamaq fikrindədir. Və hətta dəyişikliklər olacaqsa, bu, hakimiyyətin bölünməsi istiqamətində olmayacaq. Hakimiyyət yenə də o dəyişiklikləri özü həyata keçirmək niyyətindədir. Biz görürük ki, aparıcı beynəlxalq təşkilatların, dünyanı idarə edən böyük dövlətlərin Azərbaycan hakimiyyətinə tənqidləri artanda rəsmi Bakının ilk reaksiyası belə olur: "Mənim daxili işimə qarışmayın! Kimi həbs etməyi, kimi azad etməyi, necə seçkilər keçirməyi özüm bilərəm". Bu, hakimiyyətin mahiyyətidir".



Zəfər Quliyev

**Z.Quliyev hakimiyyətin parlamentin hazırkı tərkibini dəyişəcəyini düşünür, ancaq ekspertin fikrincə, bu, daha çox "daxili islahatlar" formasında olacaq:** "Güman edirəm ki, parlament seçkilərində hakimiyyət parlament korpusunu müəyyən qədər dəyişməyə çalışacaq. Bu fikirlər artıq hakimiyyətin nüfuzlu təmsilçiləri tərəfindən də ara-bir səslənir. Bildirirlər ki, bizə yeni kadrlar lazımdır, daha kreativ, daha məsuliyyətli və hətta daha cavan və sair. Ona görə də düşünürəm ki, deputat korpusunda dəyişikliklər baş verə bilər. Bizdə majoritar seçki sistemi olduğu üçün burda söhbət hansısa partiyaların payından gedə bilməz. Majoritar sistemdə ilk növbədə şəxsləri müzakirə edirlər və o şəxslər arasında biz deputat korpusunda yeni simalar mütləq görəcəyik. Artıq biz görürük ki, hakimiyyət modernləşmə kursunu başqa cür başa düşür, ilk növbədə çalışır ki, öz övladları, qohumları, yaxınları üçün yeniləşmə aparsın. Daha cavan simalar üçün qapılar açıla bilər".

**Zəfər Quliyev istisna etmir ki, bələdiyyə seçkilərindən fərqli olaraq parlament seçkilərində müəyyən dəyişikliklər olsun. Ekspertə görə, bu dəyişiklik cüzi olacaq və hakimiyyətin xaricdə imic formalaşdırmasına xidmət edəcək:** "Çünki deputat korpusunun daxili funksiyasından əlavə, bir də PR funksiyası var. Dünyaya göstərmək üçün ki, bizdə daha plüralist parlament var. Məhz bu PR, imic baxımından ola bilər ki, parlamentdə müxalifətdən də nümayəndə olsun. Bələdiyyədə bu funksiya yoxdur. Bizim hakimiyyət bələdiyyəyə nə PR vasitəsi kimi, nə də imic baxımından o qədər də əhəmiyyət vermir. Bələdiyyə hakimiyyətin yerlərdə siyasətini həyata keçirmək üçün bir vasitəsidir. Ona görə də orda yad düşərgənin - bunlar müxalifətə yad kimi baxırlar - olmasına əslində manea kimi baxırlar. Bu baxımdan bələdiyyələri onlar tam özününkü sayırlar, burda heç imitasiyaya da ehtiyac görmürlər. Lakin parlamentdə imitasiya üçün vətəndaş cəmiyyətindən, mətbuatdan, ziyalı düşərgəsindən, o cümlədən də müxalifət düşərgəsindən kimlərsə düşə bilər. Lakin ümumi götürəndə yeni parlament də ilk növbədə hakimiyyətə tabe olan şəxslərdən formalaşacaq".

❑ Kənan RÖVŞƏNOĞLU

# Səbayelin icra başçısı topun "ağzında"

## Asif Əsgərov oğlunun törətdiyi avtoqəzanın badına gedir; onun övladının ölümünə səbəb olduğu yeniyetmənin ailəsi istintaqın nəticəsini gözləyir; saxtakarlıq sübut olunsa...



Asif Əsgərov

**Səbayel Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov çox pis duruma düşüb. Yaxınlarda onu tutduğu vəzifədən azad edə bilərlər. Redaksiyamıza daxil olan məlumatda deyilir ki, A.Əsgərov oğlunun törətdiyi qəzanın badına gedir. Yada salaq ki, bu il sentyabrın 27-də saat 18 radələrində Xəzər rayonu, Türkan qəsəbəsində Qəbələ rayon sakini Əhliman Süleymanovun idarə etdiyi "Hovo" markalı yük maşını ilə 26 yaşlı İlham Asif oğlu Əsgərlinin idarə etdiyi Az 90 AR 819 dövlət nömrə nişanlı "Mercedes S Class" markalı avtomobil toqquşub.**

Qəza zamanı maşında olan sərnişin, iş adamı, "MCDonalds"ın Bakı nümayəndəliyinin rəhbəri Maqsud Mirzəyevin 16 yaşlı oğlu Sənan Mirzəyev dünyasını dəyişib. S.Mirzəyev Bakının keçmiş baş memarı Elbəy Qasımzadənin nəvəsidir. Bundan sonra mərhumun yaxınları ilə A.Əsgərovun münasibətləri kəskin pisləşib. Onun tutduğu vəzifədən kənarlaşdırılması məsələsi gündəmə gəlib. Məlum olur ki, qəza baş verən gün İ.Əsgərli ilə S.Mirzəyev Paintball oyununa gediblər.

Onları mənzil başına Asif Əsgərovun ailə sürücüsü çatdırıb. Qayıdanda isə İ.Əsgərli israr edərək sürücüdən maşını alıb. Sükan arxasına keçib və avtomobili yüksək sürətlə idarə etməyə başlayıb. Döngələrin birində isə idarəetməni itirib və avtomobil yük maşınına çırpılıb. Həmin vaxt İ.Əsgərlinin yanında əyləşən Sənan Mirzəyev ağır xəsarət alıb. Az sonra isə hadisə yerində dünyasını dəyişib. İlham Əsgərli isə salonun təhlükəsizlik yastıqları ölümdən xilas edib. Müxtəlif dərəcəli bədən xəsarətləri alan başçı oğlu dəhşətli qəzadan sağ çıxıb. Belə məlumatlar var ki, A.Əsgərovun oğlu hazırda Türkiyədə müalicədədir. Qəzadan sonra A.Əsgərov oğlunun sükan arxasında olmadığını rəsmi sənədlərə qeyd etdirə bilib. Lakin S.Mirzəyevin yaxınları bunun belə olmadığını bilirlər. Onlar hadisənin günahkarı kimi Asif Əsgərovun oğlunu təqsirləndirir, istintaqın nəticəsini gözləyirlər. Belə məlumatlar var ki, Mirzəyevlər artıq hüquqi addımlar da atmağa başlayıb. Baxmayaraq ki, icra başçısı və ətrafı müxtəlif vasitələrlə, xahiş-minnətlə Maqsud Mirzəyevi bu fikirdən döndərməyə cəhd edirlər. Sənan Mirzəyevin atasının bu məsələ ilə bağlı hətta dövlət başçısına müraciət etməyə hazırlaşdığı bildirilir.

A.Əsgərovun Dövlət Bayrağı günündə Tərtərdə hərbi hissəyə baş çəkməsi də bu olaydan dolayıdır. Məsələ bundadır ki, Dövlət Bayraq Meydanı Səbayel rayonu ərazisində yerləşir. Bayraq günündə ölkənin dörd bir tərəfindən müxtəlif dövlət qurumlarının nümayəndələri, ölkə rəhbərliyi Səbayel rayonuna, daha doğrusu, rayonun ərazisində yerləşən Dövlət Bayrağı Meydanına baş çəkir. Bu, artıq ənənə halını alıb. Belə bir vaxtda A.Əsgərov Tərtərə üz tutur. Özü də müğənni Rəqsanə ilə birgə. Başqa vaxt rayondakı abadlıq-quruculuq işlərindən danışmağa fürsət axtaran başçının gedişi onun gözdən uzaq olmaq istəyi ilə bağlı olub. A.Əsgərov gözə görünməməklə ona ünvanlana biləcək suallardan, qınaqlardan yayınır. Bilir ki, bu aralarda onu tutduğu vəzifədən uzaqlaşdırmaq üçün hər bir sözü yaxşı bəhanə ola bilər. A.Əsgərov çox çətin durumdadır və avtoqəza məsələsini ört-basdır etməyə nail ola bilmir. Səbəb də sadədir. Zərərçəkən tərəf hakimiyyətin əsas soyadlarından birinə bağlıdır. Əgər istintaq A.Əsgərovun istədiyi sonluqla yekunlaşmasa, onu topun "ağzından" kimsə xilas edə bilməyəcək.

A.Əsgərov Xəzər Dəniz Neft Donanmasının rəisi Mübariz Mədətovun aqibətini yaşamamaq üçün əlindən gələni edir, lakin istədiyinə nail ola bilmir.

Qeyd edək ki, M.Mədətovun oğlu Mübariz Mədətov idarə etdiyi "Mercedes Gelendewagen"lə xalq artisti Ağasəlim Abdullayevin ailə üzvləri ilə birlikdə olduğu maşına çırpılmışdı. Qəza zamanı A.Abdullayevin həyat yoldaşı və nəvəsi dünyasını dəyişmişdi. Bundan sonra ölkə prezidenti İlham Əliyevin göstərişinə əsasən M.Mədətov tutduğu vəzifədən qovulmuşdu.

Prezidentin qudurğan məmur övladlarına, onların qanuna zidd əməlləri və törətdikləri cinayət hadisələrinə qarşı həmişə kəskin mövqedə olduğunu hamı kimi A.Əsgərov da bilməmiş deyil. Ona görə də oğlunu Türkiyəyə müalicəyə göndərməklə, özünü zərərçəkən tərəf kimi təsdiqlətmək üçün hər vasitəyə əl atmaqdan çəkinmir. Mümkün olacaqmı?

❑ E.HÜSEYNOV

# "Məsələnin kökü də burdan əyri bitir ki..."

## **Siyavuş Novruzov:** "Ya təkrar qurultay keçirilməlidir, ya da parçalanmalar olacaq"

**Müsavat Partiyasında baş verən son hadisələrə iqtidardan növbəti reaksiya gəlib. Bu dəfə də ənənəvi qaydada YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov mətbuata açıqlamasında partiyaiçi ziddiyyətləri şərh edib, proqnozlar verib. Ümumiyyətlə, müşahidələr onu göstərir ki, bir qayda olaraq S.Novruzov müxalif düşərgəni "sərf-nəzər" etməklə məşğuldur. Belə ki, mitinq olur, dəyərləndirmə ondan gəlir, AXCP-dən istefa olur, yenə o danışır, Müsavatda qarşılıqlı ittihamlar səslənir, eyni şəkildə o, sinəsini irəli verib, el məsəlində deyildiyi kimi, "özünü yaman kişi" eləyir. Bəs YAP-çı deputat meydanda tək qalmasından narahat deyil ki? S.Novruzovla "Açıq söhbət"imizi təqdim edirik.**



**"Müsavat öz daxilində dialoq yarada bilmirsə, iqtidarla necə dialoq apara bilər?"**

***- Siyavuş bəy, kənardan belə görünür ki, siz müxalif düşərgəyə qarşı döyüş cəbhəsində tək qalmısınız. Digər partiyadaşlarınız müxalifətə ünvanlı ittihamlar səsləndirməyə meylli olmasalar da, siz yenə də "səngər"dəsiniz. Nədən belə vəziyyət yaranıb?***

- Qətiyyən elə deyil. YAP-ın 600 mindən çox üzvü var. Milli Məclisdə 71 deputatla təmsil olunurdu, hazırda 67 nəfərik. Siyasi Şuranın, İdarə Heyətinin kifayət qədər üzvləri var və müxtəlif sahələrdə çalışıb fəaliyyət göstərirlər, müxtəlif məsələlərə də münasibət bildirilir. Ona görə də belə bir şey yoxdur. Biz hazırda hamılıqla, kollektiv şəkildə, kollegial orqan olaraq fəaliyyət göstəririk.

***- Amma Əli Əhmədov və Mübariz Qurbanlı vəzifə təyinatları alana qədər onların da açıqlamalarına daha çox rast gəlirdik. Belə demək mümkündürmü ki, icra katibliyinin iki digər rəhbər şəxsi vəzifələrə təyin olunduqdan sonra yeni təyinatlar olmadı deyə, belə situasiya yaranıb?***

- Təbii ki, əsasən icra katibliyi gündəlik partiya həyatı, fəaliyyəti ilə bağlı iş aparır. Bizim Siyasi Şura, İdarə Heyəti üzvləri də dövlətin siyasəti, ümumiyyətlə, görülən işlərlə bağlı mütəmadi olaraq çıxışlar edirlər, dövlətin, prezidentin mövqeyini müdafiə edirlər. Amma partiya həyatında gündəlik işlə bağlı ola bilər ki, onlar iclasdan-iclasa, hesabatlar veriləndə məlumatlı olurlar. Amma gündəlik işlə icra katibliyi, partiya aparatı, rayon-şəhər təşkilatları məşğuldur. O baxımdan da partiya ilə bağlı mütəmadi icra katibliyi bu məlumatları verirdi. İndi icra katibliyinin iki nümayəndəsi - icra katibi Əli müəllim və müavini Mübariz müəllim müxtəlif sahələrlə də məşğuldurlar. Əli müəllim baş nazirin müavinidir, Mübariz Qurbanlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə rəhbərlik edir, hər ikisi əhəmiyyətli sahədir. O baxımdan ola bilsin ki, jurnalistlər onlarla əlaqə saxlaya bilmirlər. Mən isə gündəlik partiya həyatı ilə məşğul olduğuma görə mənə müraciət edirlər. Ona görə də gündəlik partiya həyatı, ictimai-siyasi həyatda baş verən hadisələrlə bağlı məsələlərə münasibət bildirirəm.

***- Belə çıxmırmı ki, siz də vəzifə təyinatı alandan sonra telefonunuzu jurnalistlərin üzünə qapayacaqsınız?***

- Söhbət telefonun bağlılığından getmir, telefonlar açıqdır. Deyək ki, Mübariz Qurbanlıya suallar əsasən dini sahə ilə bağlı olur. Yaxud Əli müəllimə sosial təminatda, səhiyyədə islahatlarla bağlı suallar verirlər. Az miqdarda suallar partiya ilə bağlı olur.

***- Deməli, sizin vəzifə təyinatınızla bağlı məsələ gündəlikdə deyil...***

- Mənim həm partiyada, həm Milli Məclisdə kifayət qədər işim var. Ona görə də indiki vəzifəm kifayət edir.

***- İcra katibliyinə yeni şəxslərin təyin olunmaması da Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin dediyi kimi kadr çatışmazlığının məntiqi nəticəsidir?***

- Yox. Burda elə bir kadra ehtiyac yoxdur. Paralel olaraq işlər aparılır.

***- Yuxarıda dediyim kimi, siz yalnız partiya məsələsinə münasibət bildirmirsiniz, müxalifətlə bağlı ən müxtəlif məsələlərə operativ reaksiyanız olur. Müxalifət əleyhinə açıqlamalarda yalnız sizin səsinizin gəlməsi özünüzü narahat eləmir ki?***

- Qəti şəkildə. Mənim həmkarlarım da müxtəlif məsələlərə münasibət bildirirlər. Həmçinin sual birbaşa mənə ünvanlandıqda və gündəlik bu işlə məşğul olduğumuz üçün bu məsələlərə öz münasibətimi bildirirəm.

***- Müsavat Partiyasının qurultayından sonra sizin çoxsaylı açıqlamalarınız oldu və davam edir. Bir təşkilatın daxili işlərinə müdaxilə nə dərəcədə düzgündür?***

- Əgər mərhələli şəkildə bu prosesi izləsəniz, mən Müsavatın qurultayı və qurultaydan sonra baş verə biləcək hadisələrlə bağlı öz proqnozumu vermişdim. Bu proqnozum da 99,9 faiz təsdiqləndi.

***- Amma siz onu da demişdiniz ki, İsa Qəmbər başqanlıqdan getmək istəmir...***

- İstəmirdi. Yenə həminki məsələyə qayıdacaqlar.

***- Yəni?***

- Mövqe belə olacaq ki, İsa Qəmbər getmək istəmirdi. Sadəcə olaraq, özünü demokrat göstərməkdən ötrü Müsavatda başqan olmaq istəmədi. Yəni formal olaraq özünə ən yaxın adamı Müsavat Partiyasının sədrliyinə gətirdi. Bu gün faktiki olaraq partiyanı İsa Qəmbər idarə edir. Vaxtilə belə bir prosesi Ukraynada Kuçma təşkil etmişdi. Onun prezidentlik müddəti bitdikdən sonra Yanukoviçlə Yuşşenko arasında bir gərginlik yaratdı ki, insanlar sonradan yenə Kuçmaya müraciət etsinlər, yenidən onu prezident seçsinlər. Lakin hadisələrin axarı, başqa dövlətlərin təsiri nəticəsində proseslər tamam başqa istiqamətə getdi. Hələ mən "narıncı inqilab" dövründən danışıram. Onda bilavasitə müdaxilə etmədi və ədalətliliyi təmin etmədi, prosesləri buraxdı bunların ikisinin ixtiyarına. İndi Müsavatda təbii ki, İsa Qəmbər hər bir şeyin qeyri-qanuni olduğunu görür.

***- Ancaq İsa Qəmbər mövqeyini bəyan edib və nəticələrin ədalətli olduğunu konkret deyib. Eyni zamanda o, başqanlıqda qalmaq üçün edilən müraciətlərə də "yox" cavabı vermişdi və qərarını dəyişmədi.***

- Aydın məsələydi ki, o, seçilməyəcəkdi. O, özü də bunu gözəl bilirdi. Çünki 20 il ərzində bu partiyanı geri aparırdı, irəli yox. Partiya kiçilə-kiçilə, balacalaşa-balacalaşa, dağıla-dağıla gedir. Hər bir partiyadakı vəziyyət rəhbərliyin çevik siyasət yeritməsindən, müxtəlif islahatlar aparmasından asılıdır.

***- Hər halda, Müsavat Partiyası ölkədə üçüncü dəfə namizəd olmamaq, seçilməmək ənənəsini qoydu. Təqdir edirsinizmi?***

- 20 il partiya sədri olub. Bundan sonra daha nə qədər olmalıydı ki? Müsavatın Nizamnaməsində də göstərilib ki, 5 ildən bir qurultay keçirilməlidir. 20 il dörd dəfə başqan seçilmək deməkdir. Ancaq Müsavat müxtəlif bəhanələrlə qurultayını keçirməyib. Keçən dəfə prezident seçkilərində uzatdılar, bu dəfə də parlament seçkilərinə qədər uzatmaq istəyirdilər. Ancaq yerli təşkilatların təkidlərindən sonra bunu edə bilmədilər. Xalq Cəbhəsi özünün yubileyini həmin yerdə keçirdikdən sonra yer bəhanəsi də bunların əlindən alındı.

***- Siz adətən hakimiyyətin mətbəxindən məlumatlı şəxs kimi tanınırsınız və bəzi hallarda atılacaq addımların anonsunu verirsiniz. Bu mənada sizin "Müsavat qurultayını təzədən keçirməlidir" sözlərinizi hansısa planın tərkib hissəsi saymaq, yaxud hakimiyyətin Müsavatla bağlı sürpriz hazırladığının anonsu hesab etmək olarmı?***

- Biz onların işinə qarışmırıq. Sadəcə olaraq, mən partiyada təşkilati məsələlərlə məşğul olduğuma görə, partiyanın bir neçə qurultayının keçirilməsində iştirak etdiyim üçün bu sistemi, sxemi gözəl bilirəm. Partiyada qurultay keçirilirsə, təşkilat məsələlərinə baxırsa, öz namizədliyini irəli sürəcəksə, partiyanın təşkilat komitəsi müstəqil şəxslərdən ibarət olmalıdır. Yəni İcra Aparatından yox. Məsələnin kökü də burdan əyri bitir ki, Arif Hacılı öz tabeçiliyində olan İcra Aparatından qurultayın keçirilməsi üçün Təşkilat Komitəsi yaratdı və Gülağa Aslanlını, onun bilavasitə tabeçiliyində olan şəxsi ora rəhbər təyin etdi.

***- Amma seçkilərdə əsas işlər daha etibarlı şəxslərə, rəhbərliyə yaxın olanlara həvalə olunur.***

- Əgər şəxs özü namizəddirsə, artıq burda hər tərəfin maraqlarını əks etdirən insanlar təmsil olunmalıdır.

***- Qubad İbadoğlu və tərəfdarları olan bəzi müsavatçıları bəzən hakimiyyətin maraqlarına uyğun davranmaqda ittiham edirlər. Hakimiyyətdə Qubad bəyin başqan olmağını çoxmu istəyirdilər? Bu istiqamətdə səslənən iddiaların əsası varmı?***

- Qəti şəkildə. Bizim üçün fərqi yoxdur. Bu, sadəcə olaraq, Müsavatın daxili işidir. Amma keçmiş parlament seçkilərində də Müsavat daxili seçki keçirmişdi, sonra proporsional siyahıda kimlərin adının olması məsələsində də kifayət qədər saxtakarlıq olmuşdu.

***- Ara-sıra iqtidar-müxalifət dialoqundan söhbət gedirdi, ancaq görünən budur ki, Müsavatın yeni rəhbərliyi ilə konfrantasiya yaranıb...***

- Müsavat öz daxilində dialoq yarada bilmirsə, iqtidarla necə dialoq apara bilər? Əvvəl evin içi, sonra çölü. Bu gün evin içində qırğın-qiyamətdirsə, evin çölü ilə bağlı hansı addımlar atıla bilər?

***- Ancaq kənardan belə görünür ki, hakim partiya Müsavatiçi ziddiyyətləri zövqlə izləyir, belədirmi?***

- Biz, sadəcə olaraq, Müsavat Partiyasının üzvlərinin, Vurğun Əyyubun, Qubad İbadoğlunun, Səxavət Əlisoyun, Nəsib Nəsiblinin (?-red.) və digərlərinin çıxışlarını oxuyuruq və görürük ki, Müsavatda təmsil olunan insanlar bu prosesin antidemokratik olmasına etiraz edirlər. Onlar bəyanat verib, bir hissəsi oranı tərk edib, bir hissəsi də tərk etməyə hazırlaşır. Bu baxımdan da biz onlara istinadən fikir söyləyirik. Bu, Müsavatın daxili məsələsidir. Onlara da cavab verən şəxslər Arif Hacılının iki qardaşıdır, başqa kimsə yoxdur. Yerdə qalanların, Müsavat rəhbərliyində təmsil olunanların heç biri etiraz edənlərin qeyri-obyektivliyi, düzgün danışmadığı barədə söz demirlər və təbii ki, razılaşırlar.

***- Amma Arif Hacılının qardaşları Müsavat rəhbərliyinə daxil deyillər...***

- Daxil olmasalar da, bu gün onlar çıxış edirlər. Ancaq üç qardaş cavab verir, vəssalam.

***- Bundan sonrakı proseslərlə bağlı proqnozunuz nədir?***

- Ya təkrar qurultay keçirilməlidir, ya da parçalanmalar olacaq. İndi ortaya fraksiya məsələsini də atıblar. Fraksiya o zaman olur ki, partiya monolit olur. İndiki halda bu partiyada fraksiya yarana bilməz. Çünki partiyada fikir plüralizmi məsələsi ortaya çıxır, təklif və rəylərin irəli sürülüb dəstəklənməsi üçün fraksiya yaradılır. Burada isə sadəcə, sırf saxtakarlıqdan söhbət gedir. Bu gün bir tərəf seçilmiş digər tərəfi qəbul etmirsə, burada hansı fraksiyadan söhbət gedə bilər?

❑ **Elşad PAŞASOY**

# Müsavat Divanının bəyanatına reaksiyalar gəldi

## Qubad İbadoğlu: "Bu bəyanatlar həmin toplantıda bizə dəstək verən partiya üzvlərinin sayının atmasından sonra aktuallaşıb"

**Müsavat Partiyasında qurultay və ötmüş başqanlıq seçkisinin müzakirələri bitmir. Hay-küylü müzakirələrin yekunu olaraq partiya Divanı sərt bəyanat verib. Həmin bəyanat da növbəti müzakirəyə səbəb olub.**

Noyabrın 11-də keçirilən Divanın iclasında Qubad İbadoğlunun tərəfdarlarına qəti xəbərdarlıq ünvanlanıb. Bəyanatda bütün partiya üzvləri VIII Qurultayın, partiyanın seçkili orqanlarının və digər rəhbər strukturlarının qərarlarına uyğun olaraq vahid ideoloji-siyasi xətt əsasında fəaliyyət göstərməyə çağırılıb.

Divan narazılardan Müsavat Partiyasının əleyhinə yönəlmiş pozuculuq hərəkətlərinə və partiyada paralel strukturlar yaratmaq cəhdlərinə son qoymağı, davranışlarını partiyanın nizamnaməsinə uyğunlaşdırmağı tələb edir: "Müsavat Partiyasının Divanı qeyd edir ki, partiya üzvlərinin, rayon təşkilatlarının belə fəaliyyəti durdurmaq, partiyanın Qurultayının, Məclisinin, Divanının qərarlarına uyğun fəaliyyət göstərmək tələblərinin bundan sonra da nəzərə alınmayacağı təqdirdə, Nizamnamə tələblərinə uyğun qərarların qəbul edilməsi qaçılmaz olacaq".

**Sözügedən bəyanat isə narazıların etirazına səbəb olub. Növbəti Divana dəvət olunan Səxavət Əlisoy və Əlövsət Talışxanlı getməyəcəklərini açıqlayıblar. Səbəb yeni başqana olan etimadsızlıq və başqanlıq seçkisinə olan şübhələrdir. Əlövsət Talışxanlı musavat.com-a açıqlamasında bildirib ki, Divana müzakirəyə getməyəcək:** "Mən getməyəcəm, çünki bu qurumu tanımıram, Divanın legitimliyini tanımıram. Partiya daxilində işlər nizamnamə əsasında görülməlidir, həyata keçirilməlidir. Hər hansı qanunsuzluqların müzakirəsində də nizamnamə əsas götürülməlidir. Ancaq Müsavatda zəncirvari şəkildə pozuntular baş verir. Yaxşı olardı ki, qurultaydan dərhal sonra prosesə legitimlik donu geyindirərdilər, sonra bu hərəkətləri etməyə başlayardılar".

**Müsavat başqanlığına sabiq namizəd, partiya daxilindəki narazıların yaratdığı işçi qrupun üzvü Səxavət Əlisoy da APA-ya açıqlamasında Divana getməyəcəyini bildirib:** "Müsavatın saxtakar başqanını qəbul etmədiyimə görə Divana getməyəcəyəm". **Səxavət Əlisoy qeyd edib ki, qurultayın legitimliyini qəbul etmir. O, partiya Divanının heç bir siyasi anlam kəsb etmədiyini vurğulayıb:** "Qurultayın legitimliyini qəbul etmirəmsə, deməli, Məclisi, Divanı və digər qurumları da qəbul etmirəm. Mənim üçün Divanın heç bir siyasi anlamı yoxdur. O Divan hansı qərarı verirsə versin, bir anlamı yoxdur. Buna görə də mən Divana getməyəcəyəm. Partiyada repressiyalara başlayıb, öz saxtakarlıqlarını ört-basdır etməyə cəhd göstərirlər. Düşünürlər ki, bəlkə bir-iki nəfəri cəzalandırmaqla o biri şəxslər geri çəkiləcək".


Qubad İbadoğlu


Səxavət Əlisoy

**Başqanlığa sabiq namizəd Qubad İbadoğlu isə Divanın bəyanatını Müsavat rəhbərliyi tərəfindən növbəti repressiya kimi qiymətləndirib. Onun sözlərinə görə, bəyanat müsavatçıların fərdi hüquqlarına ziddir:** "Müsavatın hazırkı rəhbərliyi rayonlarda da bəyanat "istehsalı" ilə məşğuldur. Bundan əvvəl də Məclis bəyanatla çıxış etmişdi. İndi də eyni məzmun, eyni çağırışlar və eyni ritorika ilə Divan bəyanat yayıb. Bu bəyanatlarda qurultayın nəticəsi, eləcə də hazırkı idarəçiliklə razılaşmayan və partiyanın gələcəyindən narahatlıq keçirərək öz fikirlərini ifadə edən şəxslərin cəzalandırılmasına çağırışlar partiyadaxili demokratiyanın inkişafını əngəlləyir, hər bir müsavatçının fərdi olaraq ifadə və söz azadlığını pozur. Bir mərkəzdən idarə edilən və demokratik idarəetməyə zidd olan belə sənədlərin kütləviləşməsi bəzi mətləblərə aydınlıq gətirdi. Birincisi, onu göstərdi ki, hazırkı rəhbərliyin idarə üsulları repressiv metodlara istiqamətlənir. İkincisi, barışıqla, qucaqlaşma ilə bağlı əvvəl səsləndirilən fikirlər səmimi olmayıb. Üçüncüsü, bu bəyanatlar birləşdirici deyil, bölüşdürücü mövqeyə xidmət edir. Bu, həm də partiya Mərkəzi Nəzarət-Təftiş Komissiyasına istənilən qərarı qəbul etmək üçün siyasi baxımdan münbit mühit yaradır".

**Q.İbadoğlu hesab edir ki, hazırkı rəhbərliyin yeganə düşüncəsi Müsavatın indiki idarəçiliyindən və gələcəyindən narahat olan adamların cəzalandırılmasına yönəlib:** "Səxavət Əlisoy, Əlövsət Talışxanlı kimi partiyanın nüfuzlu və stajlı şəxslərinin izahatlarının alınması üçün Divana çağırılması bu qəbildəndir və Müsavat Partiyası daxilində vəziyyətin gərginləşməsinə xidmət edir. Hesab edirəm ki, hazırkı rəhbərlik bizim haqqın və ədalətin bərpası uğrunda mübarizəmizin nəticələrindən təşvişə düşüb. Onlar oktyabrın 6-da keçirilən toplantımızdan sonra noyabrın 8-də daha geniş və möhtəşəm toplantımızdan vahimələniblər. Belə görünür ki, bu bəyanatlar həmin toplantıda bizə dəstək verən partiya üzvlərinin sayının atmasından sonra aktuallaşıb. Partiya rəhbərliyi Müsavatın gələcəyindən narazı olanların çoxalmasından və bu insanların bizim ətrafımızda daha sıx birləşməsindən sonra başqa çıxış yolu tapa bilmir və yanlış qərarlar verir. Çünki mövcud vəziyyət indiki rəhbərlik tərəfindən düzgün təhlil edilmir və onların buna potensialı da çatmır. Biz noyabrın 8-də olan toplantıya bütün müsavatçılarla yanaşı, partiya başqanlığına sabiq namizədləri də dəvət etmişdik. Bundan yaxşı şans ola bilməzdi. Təəssüf ki, orada iştirak edib, partiyanın gələcəyindən narahat olanları dinləmək şanslarını dəyərləndirə bilmədilər. Bütün bunlar onu göstərir ki, onların partiyada barışığa meyli yoxdur. Başa düşmürlər ki, onların fəaliyyətindən narazı qalanlar bir konfrans zalına yerləşməyən 150-200 nəfərlə məhdudlaşmır və sayları minlərlə, on minlərlədir. Odur ki, yeganə çıxış yolu hazırkı idarəçiliklə razılaşmayan partiya üzvlərini dinləmək və onlarla dialoq qurmaqdan keçir. Bizim əsas tələbimiz odur ki, partiya nizamnaməyə uyğun idarə olunsun. Ancaq hazırkı rəhbərliyin yeganə düşüncəsi Müsavatın indiki idarəçiliyindən və gələcəyindən narahat olan adamların cəzalandırılmasına yönəlib və bu yanlış yanaşma gərginliyi daha da artırır. Nə qədər gec deyil, onları bu yoldan çəkinməyə çağırıram".

**Müsavat Partiyasının qurultaydan narazı qalan üzvü Vurğun Əyyub da "Trend"ə açıqlamasında bəyanatdan narazılığını vurğulayıb. "Müsavat Partiyası Divanının qurultaydan narazı üzvlərin fəaliyyətinin partiyanın ümumi ideoloji-siyasi xəttinə zidd olduğu haqqında bəyanatını oxuyanda heyrət içində qaldım",- deyə o bildirib. V.Əyyub qeyd edib ki, həmin bəyanat açıqlanma tələb edir:** "Hansı ideoloji-siyasi xəttə zidd hərəkətlərdən söhbət gedir? Bunu açıqlayaydılar. Mən qurultayın nəticələrindən narazı qalan müsavatçıların partiyanın ideoloji-siyasi xəttinə qarşı hər hansı fəaliyyətini görməmişəm".

O hesab edir ki, partiyada yaranmış narazılığın aradan qaldırılması üçün bu ritorikada bəyanatlar heç bir əhəmiyyət daşımır.

❑ **Röya RƏFİYEVA**

# Mülkü partladılan sahibkardan Əli Kərimliyə növbəti ağır ittihamlar...

## Azər Əsgərovun sosial şəbəkələrdə AXCP üzvləri tərəfindən təhqir olunması davam edir; mülk sahibi bunun birbaşa Əli Kərimli tərəfindən təşkil olunduğunu iddia edir: "O, mülkümü dövlətə satıb"


Azər Əsgərov

**AXCP-nin qərargah kimi istifadə etdiyi, orada baş verən partlayışdan sonra sökülən mülkün sahibi Azər Əsgərov partiya üzvləri tərəfindən sosial şəbəkələrdə təhqir olunur. Mülk sahibi əsasən qız adları olan profillərdən aşağılanır və təhdid olunur.**

Azər Əsgərov bu profillərin saxta olduğunu iddia edir. O, bu prosesin birbaşa AXCP rəhbərliyi tərəfindən təşkil olunduğunu deyir. Bu barədə musavat.com-a açıqlamasında mülk sahibi bunları deyib: "Mənə qarşı başlayan kampaniya dayanmır. Hər gün təhqir eşitməkdən artıq təngə gəlmişəm. Bunlar Əli Kərimli və ətrafının öyrətdiyi səviyyəsiz insanlardır. Mən hakimiyyətdən çəkinmədən kişi kimi yerimi onlara verdim. Haqlı olaraq da onlardan bu hərəkətin cavabını gözləyirdim. Amma təəssüf ki, görmədim. Əvəzində nakişilik gördüm. Bu günə kimi 1 manat da kompensasiya almamışam. AXCP rəhbərliyi isə hələ də susur. Məni satqın adlandırırlar. Satılmış mən yox, Əli Kərimli, sənsən. Bununla arenada özünə imic qazanmaq istəyirsən. Mülkümün əvəzində külli miqdarda pul alaraq, məni və məsum cəbhəçiləri satan sənsən. Sənin kimi müxalifətlə döyüşə hazıram. Pulun müqabilində satılmaq sənin qanındadır. 11 ayda yığdığını 21 ildir yeyib qurtara bilmirsən. Gəldiyim qənaət ondan ibarətdir ki, müxalifət hakimiyyətdən qəddardır. Rəydə təhqir yazanlara cavabım odur ki, lideriniz mənə cavab versin. Sizlərdən qul kimi istifadə edirlər. Bütün hədələrə baxmayaraq, sona qədər kişi kimi sözümün üstündə dayandım. Amma sizlər məni meydanda tək qoydunuz. Üzərimdən alverə girərək, haram pullar qazandınız. Avropa Məhkəməsinə qədər bu işi aparacam. Tək qalsam belə. Sizlərə qərargah verdiyimə görə özüm-özümü söyürəm. Cəbhəçilərə gərək yoxdur".

**Mülk sahibi "Yeni Müsavat"a müsahibə verdiyinə görə cəbhəçilər tərəfindən təhqirlərin daha çox artdığını da qeyd etdi:** "Siz daim problemləri olan vətəndaşın yanında olduğunuza görə mənə kömək edirsiniz. Bunlar elə zənn edirlər ki, hamı özləri kimi satqındır. Nəvəm yaşda olan cəbhəçi bəzi gənclər küçə söyüşləri ilə məni təhqir edirlər. Təhqirlərə görə məhkəməyə müraciət etməyi düşünmürəm. Mən kişilərlə mübarizə aparmağı sevirəm. Nakişilərlə yox. Bunlar hakimiyyətə gəlsələr, insanları asarlar. Sizlər müxalifət deyilsiniz. Bir qrup başıpozuq adamlardır. Əli Kərimlinin ətrafına yığılıblar. Əxlaqa yaraşmayan işlərlə məşğuldurlar. Hamısı bir mərkəzdən idarə olunur. Guya ki, nəyəsə nail olacaqlar. Mülkümlə bağlı məhkəmədə bir yenilik yoxdur. Cəbhəçilərə görə mülkümdən məhrum oldum. Mənə çatan məlumata görə, Əli Kərimli mülkümün müqabilində böyük məbləğdə pul alıb. O, satılmış müxalifətdir. Mülkümü Əli Kərimli dövlətə satıb. Bir daha bildirirəm ki, mənim əmlakıma ötəri ziyan dəymişdi. Təhlükə ciddi deyildi. Bir mülkümü qoruya bilməyən Əli Kərimli, hakimiyyətə gəlsən 9 milyonun mülkünü necə qoruyacaqsan? Xalq səni çoxdan tanıyır. Ona görə arxanca gəlmir. Sənin yoldaşın Londonda iki qoruma ilə gəzir. Uşaqların da həmçinin. Bu qədər pulları haradan alırsan? Məni sosial şəbəkələrin inboxunda saxta qız profilləri ilə təhqir etdirirsən. Əli Kərimli, bilirəm ki, bundan sənin birbaşa xəbərin var. Qız belə söyüşlər yazmaz. Bilirəm ki, kişidir. Etdiyiniz hərəkətlərdən utanın. Üzbəüz sözünüz varsa, deyin. Arxadan danışmaq qorxaqların işidir. Sizlər də qorxaq olduğunuza görə belə çirkin əməllərə əl atırsınız".

Xatırladaq ki, 1997-ci ildən Türkiyədə yaşayan və sahibkarlıqla məşğul olan Azər Əsgərov mülkünü AXCP-yə kirayə vermişdi. Bir neçə aydan sonra baş verən məlum partlayış nəticəsində mülk sökülüb, sahibinə isə bu günə qədər heç bir kompensasiya ödənilməyib.

❑ **Cavanşir ABBASLI**



# O zəng kimin üçün çalınır?

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Rusiyadakı böhranın sonu bilinmir, 9 ay ərzində yaşananların isə törətdiyi ağrı-acılar bütün təzadları ilə göz önündədir. Dünyanın xammal bazasına çevrilən Rusiya Ukraynaya müdaxilədən sonra Qərbin sərt iqtisadi, siyasi qadağaları ilə üzləşdi. Son 10-12 ildə sabit inkişaf yolu keçən şimal qonşumuz məhz bu sanksiyalardan sonra ağır günlər yaşayır. Təkcə onu demək kifayətdir ki, bu ölkənin milli valyutası az qala yarıbayarı ucuzlaşıb. Bu, insanların gün-güzəranına da təsirsiz ötüşməyib, artıq bahalaşma dişini kasıb insanlara qıcayıb.**

Bütün bunlara baxmayaraq, Rusiyada hakim dairələrin müharibə ritorikası qətiyyən dəyişməyib. Əksinə, Rusiya prezidenti öz iddialarına qovuşmaq üçün məhz güc tətbiq edəcəyini açıq mətnlə bildirir. Bunun hansı fəsadlar törətdiyini isə bütün dünya görür. Qəribədir ki, bu cür ritorikanın Avropa, eləcə də bütün dünya üçün qlobal təhlükə olduğu bütün əlamətləri ilə hiss edilir. Digər tərəfdən isə Qərb ölkələri sanksiyalar bu həddə qərarlaşandan sonra da Rusiyanın inadla müqavimət göstərdiyini görüb çaşqınlıq içində qalıblar. Artıq bu cür iqtisadi-siyasi qadağaların effektiv olmaması ilə bağlı Qərbdə rəy formalaşır.

Gerçək mənzərə isə bir qədər fərqlidir. Rusiya avtoritar idarəçiliyin ən sərt forması ilə üz-üzə qalıb. Heyrət doğuran odur ki, keçmiş kommunist diktaturasına xas olan şəxsiyyətə pərəstiş XXI əsrdə bir qədər fərqli biçimdə zühur edib. Putin indiki obrazı ilə daha çox dünyaya meydan oxuyan Stalinin bir qədər zəif prototipini xatırladır. Niyyətlər isə bir qədər sadə mexanizm üzrə həyata keçirilir - fərqli fikir yürütmək yasaq olunub, kim Putinin rusların əzabı hesabına yeni imperiya yaratmaq istəyinə qarşı çıxırsa, amansız təqiblərlə üzləşir...

Heyrət doğuran odur ki, 23 il əvvəl qadağaların nə qədər dözülməz olduğunu görən bir ölkə məhz kommunist diktaturasının süqutundan 23 il sonra könüllü şəkildə yenidən pis keçmişə qayıdır...

Heç kimə sirr deyil ki, insanlar nə qədər kasıb həyat sürürlərsə, bir o qədər də qatı şovinizmin girovuna çevrilirlər. Rusiya bu illər ərzində böyük resurslara malik olsa da, Qərbdəki kimi az-çox təminatlı həyat qura bilmədi. Korrupsiya bütün arzular, ümidlər yolunda keçilməz səddə döndü... Başdan ayağa rüşvətin cazibə dairəsinə düşən ölkədə diqqəti qlobal problemlərdən yayındırmağın ən sınanmış yolu da məhz qatı millətçilik idi...

Rusiya həmişəkindən qat-qar təhlükəli bir dövlət olub. Özü də bu təhlükə onunla həmsərhəd olan, vaxtilə imperiyanın əyalətləri sayılan ölkələrdə daha fərqli çalarlara bürünüb. Gec-tez belə ağır güzərana qarşı etiraz dalğası qalxacaq, insanlar sonu bilinməyən fəlakət vəd edən müharibədən bezəcəklər. Məhz belə məqamda Rusiyanın siyasi rəhbərliyi diqqəti köklü məsələlərdən yayındırmaq üçün ətraf ölkələrdə müharibə ocaqları alovlandıra bilər...

Elə ölkələr var ki, orada ocaq tüstülənir, sadəcə olaraq, Rusiya istənilən məqamda onu alovlandırmaq fürsəti gözləyir. Əslində ona qədər də təzyiq vasitələri var.

Ən birincisi, Rusiyada yaşayan və işləyən soydaşlarımızdır. Onların sayı ilə bağlı doğru-düzgün məlumat yoxdur. Bütün hallarda rəsmilər gedənlərin 2 milyon nəfər olduğunu bildirirlər. Hətta bu ziddiyyətlər axarında onların yarısının vətənə dönməyi, onsuz da bütün əndazələri aşan işsizlər ordusuna qoşulmağı ağlasığmaz problemlər yarada bilər... Zaman-zaman Rusiyanın hakim dairələri Azərbaycan hökümətini belə təzyiqlə hədələyib...

Heç kimə sirr deyil ki, ölkə əhalisinin böyük əksəriyyətini gözü Rusiyadan gələn pullara dikilib. Əyalətlərdə işsiz-gücsüz adamlar yeganə çıxış yolunu Rusiyaya getməkdə görürlər. Əvəzində isə heç bir dolanışıq mənbəyi olmayan kəndlər öz mövcudluğunu Rusiyadan gələn qazanc hesabına qoruyurlar.

Artıq Rusiyada yaşanan böhranın əlləri Azərbaycana da uzanır. Özü güclə yaşayan kəsin öz qazancından qısıb yurdda qalan ailəsinə göndərməyi ciddi maneəyə çevrilir.

Bütün əlamətlərindən görünür ki, Azərbaycandakı siyasi hakimiyyət ona yönələn təhlükəni önləmək üçün ciddi bir addım atmaq fikrində deyil. "Bəlkə bəla bizdən yan keçdi" təsəllisi yeganə yol kimi seçilib. Həyəcan zəngi isə çalınır. Getdikcə o zəngin səsi daha aydın eşidilir.

# Kreml bölgəmizə yönəlik son həmlə hazırlıqları içində


Reuters

# Rusiya Azərbaycana Gürcüstandan "girə bilər" - təhlükə

## Bu iki Qafqaz ölkəsi çoxdan "birləşmiş qablar" kimidir - biri tutulsa, digəri də avtomatik ram olacaq; Avrasiya layihələrinin xilası üçün Putinin 5-6 ay vaxtı qalır, ancaq siyasi ömrü onun "zəfər çələngi" taxmasına yetəcəkmi?..

**2014-cü il Rusiya prezidenti Vladimir Putinin cızdığı plan üzrə, Avrasiya layihələrinin tam həcmdə reallaşması ilə yekunlaşmadı. Bunu artıq dəqiqliklə söyləmək olar. Çünki layihələrdə mərkəzi yerin ayrıldığı Ukrayna Moskva üçün əlçatmaz oldu. Beləliklə, 2015-ə Putin "dütdülü"lərlə girməli olacaq.**

Ancaq Kreml başçısı üçün "qırmızı xətt"ə hələ var. Öncələrdə qeyd elədiyimiz kimi, gələn ilin 9 mayına - faşizm üzərində qələbənin 70 illik töreninə o, postsovet məkanı uğrunda savaşda Qərb üzərində qəti qələbə ilə, ikiqat zəfər "çələngi" ilə yetişmək niyyətindədir. Yəni cəmi 5-6 ay vaxt qalır. Rusiya iqtisadiyyatının aybaay sanksiyalardan zəifləməsi Putini bir az da tələsdirir. Getdikcə narazılığı artan cəmiyyəti hansısa qələbə ilə sakitləşdirə bilməsə, onun işi gerçəkdən, qəlizləşəcək.

Moskva Ukraynadan əlini üzdüyündən hazırda bu ölkəyə münasibətdə "mənim olmayacaqsa, onda qoy məhv olsun" taktikası ilə Ukraynanın dövlətçiliyini daxildən maksimum dağıtmaqla məşğuldur. Böyük ehtimalla, bu siyasət həm də Qərblə əlverişli siyasi bazarlıq naminə yaxın dönəmdə bütün gücü ilə davam etdiriləcək. Əfsus ki, Kremlin bəzi uğurları indidən görünməkdədir.

"Donbas çətin ki, yaxın illərdə geri qaytarılsın. Çünki vəziyyətimiz çox ağırdır. Ən yaxşı halda problem dondurula bilər. Əraziyə nəzarət etmək, Donbası qaytarmaq üçün Ukraynaya 4-5 il zaman gərək olacaq". Ukrayna Təhlükəsizlik Xidmətinin müşaviri Markiyan Lyubovskinin dünən Kiyevdə söylədiyi bu sözlər Ukraynanın mövcud durumunu, bizcə, yaxşı göstərir.

***

Putinin Avrasiya layihələrindən əl çəkəcəyini düşünmək əlbəttə ki, sadəlövhlük olardı. Bu layihələri isə nəzəri cəhətdən indi Azərbaycanla Gürcüstan "xilas edə" bilər. Demək, gələn il, ələlxüsus, ilin birinci yarısında iki qonşu Qafqaz ölkəsi Moskvanın təhdidləri qarşısında ən ciddi sınaqlardan keçməli olacaq. Gürcüstanda hakimiyyət daxilində son baş verənlər bunun xəbərçisi sayıla bilər.

Azərbaycana gəlincə, onun Rusiya ilə münasibətləri göründüyü kimi rəvan deyil. Nə Qarabağ, nə də Xəzər dənizinin statusu məsələsində iki ölkə arasında indiyədək ciddi anlaşma əldə edilməyib. Üstəgəl, Azərbaycan Krımı Ukraynanın tərkib hissəsi sayır və bu mövqeyi BMT-dəki səsvermədə birmənalı şəkildə ortaya qoyub. Qəbələ RLS məsələsində Bakının prinsipial mövqeyi də yada salınsa, belə prinsipiallıqlara görə Moskvanın Bakıdan qisas almaq üçün fürsət gözlədiyini güman eləmək çətin olmaz. Hər halda, əksər analitiklər deyir ki, KQB zabiti Putinin başında daha hansı planların olduğu onun özündən savayı heç kimə bəlli deyil.

Bakının limiti isə azalır. Bir azdan balans siyasəti kara gəlməyə bilər. Sözsüz ki, şimal qonşumuzla əlaqələrin ən çox inkişaf etdiyi sahə - hərbi-texniki əməkdaşlıq və silah ticarəti ilə Bakı həm də Rusiyanın özünə qarşı qıcığını azaltmaq niyyəti güdür. Ancaq dönə-dönə vurğulandığı kimi, Kreml Ukrayna uğrunda savaşda üstünlüklər qazansa, Bakının Rusiyaya ənənəvi reveransları yetərli olmayacaq.

Azərbaycanın silah ticarətində geniş əməkdaşlığı da müstəqilliyimizə şimaldan etibarlı zəmanət anlamına gəlməməlidir. Ermənistan nümunəsi var. Rusiya elə ölkədir ki, aldıqca yenə istəyir və hər dəfə daha böyük güzəşt umur. Müxtəsəri, yaxın aylarda Moskva Qərblə qarşıdurmada uğurlu direniş göstərə bilsə və Ukrayna məsələsində geri verməsə, o zaman Azərbaycanın Rusiya ilə şərtlərlə danışması mümkün olmayacaq - nə Dağlıq Qarabağ, nə də digər məsələlərdə. Həmçinin, Gürcüstanın durumu xeyli mürəkkəbləşəcək.

Bu iki Qafqaz ölkəsi isə "birləşmiş qablar" durumundadır: onlardan biri Kremlin nəzarəti altına keçsə, digəri də dərhal ram olacaq. Söhbət əslində klassik anlamda hərbi müdaxilədən də getmir, Ukrayna nümunəsi əsasında birbaşa təhdidlər yolu ilə, daxildə "5-ci kolon"çuları hərəkətə gətirməklə, sərhəd boyu iri hərbi birləşmələr toplamaqla "əzələ nümayiş etdirib" siyasi hədəfə çatmaqdan, yekun olaraq yalnız Rusiyaya biət edəcək rejimlərin iş başına gəlməsinə şərait yaratmaqdan gedir. Bəzi təhlilçilərə görə, proses məhz əldən çıxmaqda olan Gürcüstandan vüsət ala bilər.

***

**Bir sıra digər analitiklərin rəy və təxminləri də bu xüsusda xeyli narahatedici tondadır. Məsələn, NATO Əməkdaşlıq İnstitutunun rəhbəri Fərrux Məmmədov Gürcüstan iqtidarı daxilində casus olduğunu bildirərək deyib:** "Bu şəxs və ya şəxslər, görünür, hökumətdə önəmli strateji post tutur. Çünki tam məxfi sənədləri və Gürcüstanın son iki ayda imzaladığı mühüm öhdəlikləri hər kəs bilə bilməz. Görünür, kim(lər)sə bu sənədləri Rusiya tərəfinə verir. Gürcüstanda baş tutan istefalar buna işarədir. Kreml Gürcüstanın tam məxfi sənədlərindən xəbər tutmuş olmasaydı, bu gün siyasi böhran yaşanmazdı. Tiflis bu böhrandan çıxmaq üçün öz daxilində ciddi araşdırmalar aparmalıdır. Əks təqdirdə, Gürcüstanda "Qafqaz baharı"nın yenidən yaşanacağını görə bilərik". **Ekspert Gürcüstanda gedən proseslərin Azərbaycana da təsirsiz ötüşməyəcəyi qənaətindədir:** "Rusiya bu ölkəni ram edə bilsə, Azərbaycan siyasi və iqtisadi blokadaya düşəcək".

"Putinin aydın məqsədi var ki, 1721-1917-ci illərdə mövcud olmuş rus imperiyasının mümkün qədər çox hissəsində nəzarəti bərpa etsin". Bunu isə ABŞ-ın nüfuzlu Cato İnstitutunun baş elmi əməkdaşı, **Qlobal İqtisadi İnkişaf İnstitutunun direktoru Riçard Ran** "The Washington Times" qəzetində dərc edilmiş məqaləsində yazıb (virtualorg.az).

"Əgər Putin tezliklə birbaşa və ya dolayısı formada Ukraynaya nəzarəti təmin etsə o, çox güman ki, tezliklə Belarusu və Moldovanı bilavasitə idarə etmək, daha sonra Gürcüstana və Azərbaycana keçmək üçün fəaliyyətə başlayacaq. Bu da ona Xəzər dənizi, neft-qaz kəmərləri üzərində nəzarəti təmin edəcək. Bu məqamda Putinin rusdilli azlığı qorumaq adı altında Baltik ölkələrinə müdaxiləyə başlamaq üçün yaxşı mövqeləri olacaq" - müəllif bildirib.

**Azərbaycanlı politoloq Vəfa Quluzadə də Rusiya təhlükəsi barədə həyəcan təbili çalır. Sitat:** "Rusiya anlayır ki, Azərbaycan qərbyönümlü dövlətdir. Müstəqil Azərbaycanın bünövrəsi Rusiyadan qaçıb, Qərbə inteqrasiya etməkdir. Ona görə də həm NATO-nun, həm Rusiyanın bizə marağı böyükdür. Bu marağın nəticəsi də Amerika-Rusiya qarşıdurmasından asılıdır". **Quluzadənin sözlərinə görə, Azərbaycanın başqa seçim imkanı qalmayıb:** "Azərbaycan məhv olmamaq üçün güclü ilə eyni düşərgədə olmalıdır. 70 il tərkibində olduğumuz Rusiya imperiyasının bizə münasibətini gördük. Bu imperiya azərbaycanlıları sığışdırmaqla bizim torpaqda Ermənistan dövləti yaratdı. Bundan sonra Sovet İmperiyası Zəngəzuru Azərbaycandan alıb ermənilərə verdi. Daha sonra torpaqlarımızda ikinci qondarma erməni dövləti - Dağlıq Qarabağ Muxtar Respublikasını yaratdı. Sovet ittifaqı çökmək ərəfəsində həmyerlilərimiz Ermənistandan zorla qovuldular. Moskvanın siyasəti bizə məlumdursa, biz yenidən Rusiyanı seçə bilmərik".

***

Yazıda qeyd edilənlər əlbəttə ki, təxəyyül məhsulları deyil. Müşahidələr göstərir ki, postsovet məkanına Rusiya təhlükəsi artıb. Ancaq Putinin Avrasiya layihələrini başa çatdırmaq üçün siyasi ömrü bəs edəcəkmi? Sual həm də budur. Çünki ant-Avrasiya layihələri də artıq işə salınıb.

❑ Siyasət şöbəsi

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Ağdam səmasında düşmənin helikopteri vuruldu



**Düşmən hərbi hava qüvvələrinə məxsus helikopter vurulub. Müdafiə Nazirliyindən azvision.az-a verilən məlumata görə, Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən keçirilən son təlimlər zamanı düşmən hərbi aviasiyası cəbhəyanı zonada 3 gündür ki, provokasiya xarakterli uçuşlar həyata keçirir.**

Davamlı olaraq mövqelərimiz üzərində döyüş manevrləri yerinə yetirən düşmən hərbi aviasiyası bu gün daha açıq şəkildə döyüş kursuna çıxaraq uçuşlar keçirməklə mövqelərimizə atəş açmağa cəhd edib.

Noyabrın 12-də saat 13:45 radələrində cəbhənin Ağdam rayonunun Kəngərli kəndindən 1700 metr şimal-şərq istiqamətində Ermənistan Respublikası Silahlı Qüvvələrinə məxsus "Mİ-24" tipli helikopteri döyüş kursuna enərək mövqelərimizə hücum edib. Qoşunlarımız tərəfindən açılan cavab atəşi nəticəsində düşmən helikopteri məhv edilib.

Vurulan düşmən helikopterinin qalıqları müdafiənin ön xəttindən 500 metr qarşıdakı əraziyə düşüb.

Düşmən helikopterini məhv edən hərbçi mükafatlandırılıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, manqa komandiri Muradov İlkin Məmməd oğlu xidməti vəzifəsini yerinə yetirərkən sayıqlıq və igidlik göstərərək düşmənin "Mİ-24" tipli döyüş helikopterini vurduğuna görə müdafiə naziri, general-polkovnik Zakir Həsənovun əmri ilə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib və qiymətli hədiyyə ilə mükafatlandırılıb.

Müdafiə Nazirliyi əlavə olaraq bildirir ki, düşmənin döyüş cütlüyündən ibarət helikopterlərdən biri vurulub, digəri isə atəş zonasından yayınaraq uzaqlaşıb. İlkin məlumata görə, düşmənin məhv edilmiş helikopterində olan 3 hərbi qulluqçusu həlak olub.

Azərbaycan səmasında erməni işğalçı qüvvələrə məxsus "Mİ-24" hərbi vertolyotunun vurulmasını düşmən tərəf də təsdiqləyib. Musavat.com-un erməni informasiya qaynağına istinadən verdiyi xəbərə görə, separatçı rejimin "müdafiə nazirliyi" hadisənin hərbi təlimlər zamanı baş verdiyini bəyan edib. Erməni tərəfi vertolyotun "neytral zonada, təmas xəttinin bilavasitə yaxınlığında" Azərbaycan tərəfindən vurulduğunu bildirir. Hadisə nəticəsində üç hərbçi ölüb. Musavat.com-un erməni informasiya qaynağına istinadən verdiyi xəbərə görə, ölənlərdən biri - Sergey Saakyan mayor imiş.

## 3 erməni hərçisi həlak oldu; **Pənah Hüseyn:** "Erməni helikopterinin vurulması ciddi uğurdur"

"İşğal olunmuş ərazilərimizin üzərində uçuşa qadağan situasiyası yaratmaq olduqca vacib məsələdir",- **AXP sədri Pənah Hüseyn** düşmən hərbi hava qüvvələrinə məxsus helikopterin vurulmasına münasibət bildirərkən belə deyib.

**O, musavat.com-a açıqlamasında qeyd edib ki, bu, ciddi uğurdur:** "Əvvəla, hərbçilərimizi təbrik edirəm. Bu, ciddi uğurdur, xoş xəbərdir. İşğal olunmuş ərazilərimizin real olaraq uçuşa qapalı zona olmasına nail olmaq lazımdır. Azərbaycan əsgərinə eşq olsun!"

**"Ermənistan Silahlı Qüvvələrinə məxsus helikopterin vurulması ciddi mənada presedent yaradacaq",- siyasi ekspert Natiq Miri düşmən hərbi hava qüvvələrinə məxsus helikopterin vurulmasına münasibət bildirərkən belə deyib. O, musavat.com-a açıqlamasında bildirib ki, baş verən hadisə Ermənistana ciddi mesajdır:** "İşğal olunmuş ərazilərimizin Ermənistan üçün uçuşa qadağan zona elan edilməsi çox zəruridir. Baş verən hadisə çox ciddi mənada bir presedent yaradacaq. Çünki artıq bir ilə yaxındır ki, işğal olunmuş Azərbaycan torpaqlarında Xocalı aeroportunun fəaliyyətə başlaması ilə bağlı Ermənistan və Rusiya tərəfindən hərbi provokasiyalar edilir. Hətta aeroportun açılmasına müəyyən hazırlıqlar da görülür. Mənə elə gəlir ki, bu vertolyotun vurulması ciddi mesaj və siqnal oldu. Çatdırıldı ki, qeyri-qanuni aeroportun fəaliyyəti mümkün olmayacaq. Bu hadisə ilə işğal olunmuş və olunmamış ərazilərimiz Ermənistanın helikopterləri üçün qadağan olunmuş məkan kimi elan edildi. Çatdırıldı ki, hava məkanımızı pozan obyektlər dərhal Azərbaycan Ordusu tərəfindən vurulacaq. Bu, beynəlxalq hüquqla da Azərbaycanın haqqıdır. Azərbaycan bu səlahiyyətə beynəlxalq hüquqla malikdir.


Pənah Hüseyn

Hərbi uçuşlar zamanı Azərbaycan Ordusunun öz torpaqlarının üzərindən keçən obyektləri vurması tamamilə qanunidir. Baş verən bu hadisənin həm hərbi, həm də siyasi əhəmiyyəti olacaq. Bu, həm siyasi, həm də hərbi cəhətdən Azərbaycanın xeyrinə işləyən bir hadisə oldu".

# "Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir"

## Almaniya XİN-i konkret mövqe sərgilədi; Ermənistan parlamentində qondarma "DQR" səsverməsi baş tutmadı; deputatlar zaldan qaçdı

**Ermənistan parlamentində qondarma "DQR"in "müstəqilliyinin" tanınmasına dair müxalif deputat Zauru Postancyan tərəfindən irəli sürülmüş qanun layihəsinin səsverməsi iflasla nəticələnib. Virtualaz.org xəbər verir ki, qanun layihəsi səsə qoyulanda deputatların böyük əksəriyyəti iclas zalını tərk edib. Nəticədə "DQR"in tanınmasının lehinə cəmi 8 deputat səs verib, 1 deputat bitərəf qalıb, əleyhinə heç kim səs verməib.**

Layihə səsverməyə çıxarılmazdan əvvəl parlamentin xarici əlaqələr komitəsinin rəhbəri, hakim Respublika partiyasını təmsil edən Artak Zakaryan deyib ki, bu cür layihə artıq dördüncü dəfədir təqdim edilir. O qeyd edib ki, bu cür sənədin qəbul edilməsinin vaxtı çatmayıb. "Nə vaxt belə layihənin qəbul edilməsi məqsədyönlü olsa, o zaman parlamentin bütün üzvlərinin təşəbbüsü ilə müzakirəyə çıxarılacaq və yekdilliklə qəbul ediləcək" Zakaryan bildirib.

Layihə parlamentə təqdim ediləndə hakim partiyadan olan deputatlar deyiblər ki, "DQR"in tanınması Azərbaycanın müharibəyə başlamasına səbəb olacaq və bu səbəbdən təşəbbüs yersizdir.

**APA-nın Ermənistan mətbuatına istinadən verdiyi məlumata görə, Ermənistan Milli Konqresinin parlament fraksiyasının sədri Levon Zurabyan bildirib ki, Dağlıq Qarabağın Ermənistan tərəfindən tanınması vaxtından əvvəl atılmış addım olardı. O deyib ki, bu, Ermənistanın danışıqlardan birtərəfli çıxması mənasına gələ bilər:** "Bu isə danışıqları poza, Ermənistanın təcridinə gətirib çıxara bilər və hərbi əməliyyatların bərpası təhlükəsini artırar".

L. Zurabyan əlavə edib ki, Dağlıq Qarabağın möhkəmlənməsi iqtisadi resursların yaradılması ilə mümkündür...

Ermənistan parlamentindəki məlum layihə rədd edildikdən sonra parlamentin spikeri Qalust Sakyan jurnalistlərə deyib ki, Ermənistanın hakim Respublika Partiyası Dağlıq Qarabağın beynəlxalq səviyyədə tanınması məsələsi həllini tapanadək hakimiyyətdə olacaq.

Musavat.com-un xəbərinə görə, "Dağlıq Qarabağın beynəlxalq səviyyədə tanınması məsələsi həll edilənədək biz hakimiyyətdə qalacağıq" - deyə Saakyan bildirib.

"Məgər elə bu səbəbdən problemin həlli uzanmırmı" replikasına isə o, "Problem Azərbaycanın qeyri-konstruktiv mövqeyi ucbatından həllini tapmır" söyləməklə kifayətlənib.

***

Bu arada Almaniya Bundestaqının internet saytında "Dağlıq Qarabağ uğrunda iğtişaşlar" sərlövhəli məlumat dərc olunub. "AzərTAc"ın verdiyi xəbərə görə, məlumatda bu ilin əvvəlindən Dağlıq Qarabağ münaqişəsində atəşkəsin pozulması hallarının intensivləşdiyi qeyd olunur.




Bildirilir ki, Bundestaqın "Solçular" fraksiyasının bununla bağlı AFR hökumətinə ünvanlandığı sorğuya Xarici İşlər Nazirliyi cavab verib.

**"Solçular" fraksiyasının 18/2728 nömrəli kiçik sorğusuna Federal hökumətin 18/2816 nömrəli cavabında deyilir:** "Dağlıq Qarabağ beynəlxalq hüquq baxımından Azərbaycanın ayrılmaz tərkib hissəsidir, amma erməni silahlı qüvvələrinin nəzarətindədir".

Cavab məktubunda həmçinin bildirilir ki, təmas xəttində qarşıdurmalar iyulun sonu və avqustun əvvəlində zirvə nöqtəsinə çatıb, sonradan yenidən əvvəlki illərin vəziyyətinə qayıdıb. Daha çox snayper və avtomatlardan, eləcə də digər piyada əl silahlarından istifadə olunub.

Federal hökumətin məlumatına görə, qondarma "Dağlıq Qarabağ Respublikası" "özünümüdafiə qüvvələrinin" 23000 əsgəri var. Onlardan 8000 nəfəri Ermənistan Silahlı Qüvvələrinin hərbi qulluqçusudur.

***

### Fransa səfiri: "Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövcud durum çox davam edə bilməz"

Mövcud situasiya Fransanın da narahatlığına səbəb olub. Belə görünür ki, Fransa avqust ayından bəri aparılan danışıqların yeni mərhələsinin, xüsusi ilə prezidentlərin Paris görüşündən sonrakı danışıqların hansısa nəticə verəcəyinə ümidlidir. "Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövcud durum çox davam edə bilməz". APA-nın Ermənistan mətbuatına istinadən verdiyi məlumata görə, bunu Fransanın Ermənistandakı yeni səfiri Jan-Fransua Şerpantye İrəvanda keçirdiyi brifinqdə bəyan edib.

**Diplomat qeyd edib ki, bu, Fransanın mövqeyidir.** "Bu, mənim mövqeyim deyil, ölkəmin mövqeyidir. Bu mövqe hamıya məlumdur. Prezident Olland bu yaxınlarda Ermənistan və Azərbaycan prezidentləri ilə keçirdiyi görüşdə bunu bir daha ifadə edib. Rəsmi Paris hesab edir ki, tərəflər tezliklə xalqlarının istəyinə cavab verəcək həll variantını tapmalıdır", - deyə o vurğulayıb.

Hazırda gedən proseslərdən belə nəticə hasil olur ki, Ermənistan danışıqların yeni mərhələsində də öz mahiyyətinə "sadiq" qalaraq pozuculuq ənənəsini davam etdirir. Görünür, düşmən ölkə məsələnin sülh yolu ilə həllinə, barəsində danışılan Böyük Sülh Sazişinə nail olunmasına əngəl törətməyə gprüşüb. Bu o deməkdir ki, deyəsən, Ermənistan özünün mövcudluğunu qorumaq üçün yaranan son şansdan da yararlanmaqda maraqlı deyil. Hələ aylar öncə - avqustda baş verən üç günlük müharibənin ardınca ekspertlər qeyd ediblər ki, Azərbaycan iqtidarının öz torpaqlarını silahlı yolla azad etmək əzmini nümayiş etdirməsi hər kəs üçün dərs olmalıdır. Yəni bu olaylardan sonra - danışıqların yeni mərhələsində də Ermənistan işğalçılıq siyasətindən əl çəkməsə, sülhə razı olmasa, Azərbaycan öz torpaqlarını hərbi yolla azad etmək məcburiyyətində qalacaq, bu hüququndan yararlanacaq. Bu isə Ermənistanın məhvi deməkdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Maqsud MAHRIZLI

**"London Times" qəzeti Bakıda məxfi ABŞ-İran danışıqlarının getməsi haqda xəbər yayıb. Virtualaz.org saytının məlumatına görə, danışıqların birinci raundu İran və Amerika rəsmiləri arasında ötən həftə olub. Tərəflər ABŞ-la İran arasında nüvə razılaşması əldə olunacağı təqdirdə 1979-cu ildə kəsilmiş diplomatik münasibətlərin bərpasına dair müzakirələr aparıblar.**

# Bakıdakı məxfi ABŞ-İran danışıqları - gerçəkmi?

## Tehran və Vaşinqton Bakıda danışıqlar aparılması xəbərini tez-tələsik təkzib etsələr də, iki ölkə rəsmiləri arasında müxtəlif səviyyələrdə təmaslar davam edir

"London Times" xəbər verir ki, tərəflər nüvə anlaşmasına yaxındır və bu səbəbdən ABŞ-la İran rəsmiləri nüvə anlaşmasının əldə olunmasının ardınca ikitərəfli diplomatik münasibətlərin bərpası məsələsini müzakirə edirlər.

Mənbə bildirib ki, Bakı danışıqlarında mövzu ABŞ-ın Tehranda ticarət nümayəndəliyinin açılması barədə olub. Adının açıqlanmasını istəməyən İran rəsmiləri qəzetə bildiriblər ki, danışıqların növbəti raundu bu həftə yenidən Bakıda keçiriləcək. Tehranı həmin danışıqlarda İranın Qlobal Ticarət Bürosunun rəhbəri Məhəmməd Rza Səbzəlipur təmsil edəcək.

Ancaq ABŞ Dövlət Departamenti Bakıda məxfi İran-Amerika danışıqlarının getdiyinə dair xəbəri təsdiqləməyib. Dövlət Departamentindəki mənbə İranda ticarət ofisinin açılmasına dair heç bir danışıqların getmədiyini, Səbzəlipur adlı İran rəsmisi ilə təmasların olmadığını bildirib.

Tehran Beynəlxalq Ticarət Palatasının rəhbəri Məhəmmədrza Səbzəlipur "Trend"ə açıqlamasında bildirib ki, İranda heç bir ABŞ ticarət ofisinin açılmasında vasitəçilik etmir və ümumiyyətlə, Azərbaycanda müzakirələr üçün nümayəndə heyətinə başçılıq etmir. M.Səbzəlipur deyib ki, o, Bakıda yaxın vaxtlarda səfərdə olmayıb və İran nümayəndə heyətinin tərkibində də deyil. ABŞ-ın Azərbaycandakı səfirliyindən "Trend"ə yayılan məlumatı təkzib ediblər və bildiriblər ki, nəşrin yaydığı məlumatda da ABŞ tərəfinin təkzibi qeyd olunub.

Ancaq hər iki tərəfin tez-tələsik bu məlumatı təkzib etməsi maraq doğurur. Bu, onu göstərir ki. Bakıda danışıqların olması ilə bağlı məlumat bir mənada həm də iz azdırmaq məqsədli ola bilər. Çünki hazırda İran və Qərb ölkələri arasında aktiv nüvə danışıqları davam edir və bundan başqa keçən ay Obama da İran ali dini liderinə məktub yazıb. Bu və digər detallar təsdiqləyir ki, hazırda İran və ABŞ arasında danışıqlar prosesi davam edir, sadəcə, detallar gizli saxlanılır.

Qeyd edək ki, İranla ABŞ arasında gizli danışıqlar haqda ilk dəfə xəbərlər bir müddət əvvəl gündəmə gəlib. Həmin vaxt amerikalı rəsmilər Vaşinqtonla Tehran arasında məktublaşmaların olduğunu etiraf ediblər. Ümumiyyətlə, Vaşinqtonun birbaşa olmasa da vasitəçilər vasitəsilə İranın nüvə proqramı ilə bağlı danışıqlar apardığı əvvəldən də bilinirdi. Qərb mediasının yazdığına görə, Tehran-Vaşinqton arasında nüvə danışıqlarının əsas vasitəçilərindən biri Oman sultanı Qabus ibn Səid olub. Hələ 2011-ci ildə məhz Oman sultanının vasitəçiliyi ilə İranla ABŞ arasında gizli



nüvə danışıqları başlayıb. İrana hərbi müdaxiləni əlverişsiz sayan Vaşinqton rəhbərliyi Tehranla gizli şəkildə və vasitəçilərlə danışıqlara maraq göstərib.

Omanda keçirilən danışıqlar İran və Vaşinqton arasında nüvə təmaslarının başlanğıcı hesab olunur. Artıq 40 ildən çoxdur Omanı idarə edən sultan Qabus Yaxın Şərqin dünyəvi cizgili ərəb liderlərindən biridir. Qərb təhsilli sultana Amerikanın etimadı ilə yanaşı, görünür, Omanın həm də aqressiv ərəb rejimləri ilə müqayisədə daha çox mötədil lider təsiri bağışlaması olub.

Xatırladaq ki, ötən il noyabrın 21-də İran və "altılıq" ölkələri arasında nüvə məsələsi ilə bağlı ilkin razılaşma əldə olunub. Hazırda isə danışıqların həlledici raundu davam edir və noyabrın 24-də yekun razılaşma əldə olunmalıdır. Ancaq hələ ötən ildən başlayaraq Avropa Birliyi və ABŞ İrana qarşı sanksiyaları müəyyən qədər yumşaltmaq, İslam Respublikasına tətbiq olunan bir sıra sanksiyaları ləğv etməklə bağlı qərarlar qəbul edib, bir neçə bank hesabı aktivləşdirilib. İran hakimiyyəti isə Tehranın nüvə silahı əldə etməməklə bağlı öhdəlik götürüb və bununla bağlı Qərbə inandırıcı dəlillər təqdim etməyə hazır olduğunu bəyan edir. Bundan başqa, ötən bir ildə İran Qərblə qarşıdurma siyasətindən imtina edib, Tehran və Qərb dairələri arasında bir sıra görüş və müzakirələr baş tutub. Regionda baş qaldıran radikal islamçı qruplaşmalar, o cümlədən İraq və Suriyada İŞİD terror qruplaşmasının fəaliyyətləri Qərb üçün İran təhlükəsi mövzusunu müəyyən mənada arxa plana keçirib. Oktyabrın 26-da isə ABŞ prezidentinin İranın ali dini liderinə məktub yazması haqda xəbərlər mediaya ötürülüb. Vaşinqton administrasiyası məktub göndərildiyini təsdiq etsə də, orda İŞİD mövzusunun deyil, İranın nüvə məsələsinin yer aldığını bildirib.

Bakı görüşü təkzib olunsa da, baş verənlər göstərir ki, Obama administrasiyası Yaxın Şərqdə siyasətini dəyişib və İslam Respublikası ilə danışıqlar kursunu davam etdirir. Hazırda bölgədə böyük miqyaslı antiterror əməliyyatları həyata keçirən və Rusiyaya qarşı sanksiyalara imza atan ABŞ-ın İranla münasibətləri yenilənməsi qeyri-adi görünməməlidir. Məsələ bundadır ki, indi bu vəziyyət Tehrana da uyğun olduğu üçün münasibətlər sürətlə yumşalır. Ancaq davam edən danışıqların, həmçinin əldə olunan razılaşmaları İran-Amerika müttəfiqliyi adlandırmaq hələ tez olardı. Çünki açıq görünməsə də, hazırda İraq və Suriyada davam edən proseslərdə həm də gizli bir İran-Qərb rəqabəti var. İstənilən halda Yaxın Şərqdə bu iki güc toqquşur.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Xankəndindəki girovların taleyi Allahın ümidinə qalıb



## XİN-də yeni məlumat yoxdur; Ayaz Mütəllibov da fakta münasibət bildirdi

**Media İşçi Qrupunun Kəlbəcərdə girov götürülən Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı müraciəti artıq ünvanlarına çatdırılıb. Qeyd edək ki, QHT Şurası nəzdində fəaliyyət göstərən təşkilat girovların azad edilməsinə kömək etmələri üçün Rusiya prezidenti Vladimir Putin və Fransa prezidenti Fransua Olland, eləcə də Avropa Komissiyasının prezidenti Jean-Claude Junker, Avropa parlamentinin sədri Martin Schultza müraciət etmişdi.**

Almaniya - Azərbaycan Mədəniyyət Evindən modern.az saytına verilən məlumatda qeyd edilir ki, azərbaycanlı jurnalistlərin müraciəti Almaniya - Azərbaycan Mədəniyyət Evində fransız və alman.dillərinə tərcümə edilərək rəsmi blankla yuxarıda adları çəkilən şəxslərin ünvanlarına göndərilib. Müraciətlər eyni zamanda faksla da həmin şəxslərə ünvanlanıb. Almaniya - Azərbaycan Mədəniyyət Evindən onu da bildiriblər ki, bu istiqamətdə səylərini davam etdirəcəklər.

Təəssüf ki, Ermənistanın girov götürdüyü Dilqəm Əsgərov və Şahbaz Quliyevin geri qaytarılmasında heç bir irəliləyiş yoxdur və bu məsələyə hüquqi qiymət də verilməyib.

Beynəlxalq təşkilatlara edilən müraciətlərə baxmayaraq, Azərbaycan tərəfi girovların taleyindən hələ də narahatdır. BMT, ATƏT, Qırmızı Xaç Komitəsi kimi böyük beynəlxalq qurumlar məsələyə tərəfsiz mövqe sərgiləməkdən qaçır. Girovlarla bağlı Xankəndində keçirilən qondarma məhkəmə şousunda də azərbaycanlı girovların hansı və necə şəraitdə saxlanmaları bəlli oldu. Düzdür, Beynəlxalq Qırmızı Xaç Komitəsi girovların məsələsini nəzarətdə saxladığını deyir, ancaq fakt göz qabağındadır.

Bəs rəsmi Bakı indiki situasiyada nə etmək niyyətindədir və nələri edir?

**XİN-in mətbuat katibi Hikmət Hacıyev** "Yeni Müsavat"a dedi ki, xarici işlər naziri Elmar Məmmədyarov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Avropa məsələləri üzrə naziri Deyvid Lidinqtonla birgə keçirdiyi mətbuat konfransında bu məsələyə münasibət bildirib və indiki durumda bundan əlavə hər hansı münasibət bildirilməyəcək.

**Xatırladaq ki, nazir Kəlbəcərdə əsir düşən azərbaycanlıların vəziyyəti və qanunsuz məhkəmə məsələsi haqqında danışarkən belə deyib:** "Bu məsələ bizim diqqətimizdədir. Parisdə olarkən həmsədrlər qarşısında bir daha bu məsələni qaldırdıq. Həmsədrlər Bakıda olarkən, cənab prezident özü də bu məsələni qaldırmışdı. Həmsədrlər İrəvanda olarkən, öz növbələrində bu məsələyə toxunmuşdular. Rusiyadan olan həmsədrlə danışarkən o mənə söz verdi ki, bu məsələni onlar izləyəcək və məşğul olacaqlar". **E.Məmmədyarov prosesin sadəcə bir qədər vaxt apardığını vurğulayıb:** "Əminliklə deyə bilərəm ki, Xarici İşlər Nazirliyi olaraq, Azərbaycan tərəfi bu məsələni diqqətlə izləyir. Bu məsələni belə boş buraxmayacağıq. Həmsədrlər ilk növbədə məsələ ilə məşğul olmalıdırlar və onlar bununla məşğul olurlar. Bu bir az vaxt tələb edəcək. Amma mən inanıram ki, biz onları geri qaytaracağıq. Buna mənim şübhəm yoxdur. Məhkəmənin qanunsuz olduğunu siz özünüz də dediniz".

**Azərbaycanın eks prezidenti Ayaz Mütəllibov məsələylə bağlı modern.az saytına açıqlama verib:** "Girovlarımızın hələ də geri qaytarılmamasını Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasını ləngidir. Belə fikir yaradılır ki, rəsmi Bakı Qarabağ məsələsinin sülh prosesinə yaxınlaşmasına təsir edir. Guya Bakı öz kəşfiyyatçılarını Qarabağ ərazisinə göndərir. Bununla da Azərbaycanın düşmən mövqe sərgilədiyini ortaya qoymuş olurlar. Ən əsası həqiqətə uyğun olmayan böhtanlar danışırlar". **Eks prezidentin sözlərinə görə, girovların geri qaytarılmamasında Ermənistan tərəfinin mövqeyi aydındır:** "Girovların Azərbaycana qaytarılmaması siyasi hoqqabazlıqdır. Ermənistan tərəfi ictimai fikri öz tərəfinə cəlb etmək istəyir. Bu məsələnin həllində müvafiq təşkilatları cəlb etmək lazımdır. Müvafiq xarici təşkilatlara, ATƏT-in nümayəndələrinə, BMT-yə, səfirliklərə müraciətlər etməklə yanaşı, ardıcıllıqla özümüz də bu işlə məşğul olmalıyıq. Bu, reallıqdır, bununla hesablaşmalıyıq. Buna baxmayaraq, biz öz işimizi davam etməliyik. İndiki zamanın özündə görürük ki, Avropa təşkilatları böhtançılıq mövqeyindən çıxış edərək təzyiq göstərirlər. Bu, geosiyasi məsələdir".

❑ **Cavid TURAN**

# "Rusiyanın Cənubi Qafqazı zəbt edəcəyini gözləmirəm"

## Vəfa Quluzadə: "İndiki situasiyada iki cəbhədə vuruşmaq Moskvaya sərf etmir"

**"Putinin aydın məqsədi var ki, 1721-1917-ci illərdə mövcud olmuş rus imperiyasının mümkün qədər çox hissəsində nəzarəti bərpa etsin". Bunu ABŞ-ın nüfuzlu Cato İnstitutunun baş elmi əməkdaşı, Qlobal İqtisadi İnkişaf İnstitutunun direktoru Riçard Ran "The Washington Times" qəzetindəki məqaləsində yazıb.**

O xatırladıb ki, rus imperiyası əsası keçmiş sovet respublikalarının, Şərqi Avropanın əksər ölkələrinin, Finlandiyanın və Alyaskanın ərazilərindən ibarət olub. "Cənab Putin bilir ki, ABŞ-ın növbəti prezidenti çətin ki, onun imperiyanın bərpasına yönəlmiş planlarına prezident Obama kimi qətiyyətsiz və həvəssiz reaksiya verərdi. O, hətta rus neftinə tələbatın azalması və qiymətlərin gözlənilmədən aşağı düşməsi ilə qarşılaşıb. Bu da Rusiyanın maliyyə rezervlərinin ciddi ölçülərdə azalmasına gətirib çıxarır. Deməli, Putinə təzyiqləri artırmaq üçün tələsmək lazımdır" - deyə Riçard Ran yazıb. (Virtualaz.org) "Əgər cənab Putin tezliklə birbaşa və ya dolayısı formada Ukraynaya nəzarəti təmin etsə, o, çox güman ki, tezliklə Belarusu və Moldovanı bilavasitə idarə etmək, daha sonra Gürcüstana və Azərbaycana keçmək üçün fəaliyyətə başlayacaq. Bu da ona Xəzər dənizi, neft-qaz kəmərləri üzərində nəzarəti təmin edəcək. Bu məqamda Putinin rusdilli azlığı qorumaq adı altında Baltik ölkələrinə müdaxiləyə başlamaq üçün yaxşı mövqeləri olacaq" müəllif bildirib.

**Politoloq Vəfa Quluzadə isə hesab edir ki, R.Ran ehtimalları dilə gətirir:** "Hesab edir ki, Ukraynaya hərbi təcavüz edən Rusiya Sovet İttifaqının bərpasına cəhd edəcək və bunun qarşısını heç kəs ala bilməyəcək. Ona görə ki, Rusiya təhlükəli siyasət yürüdür. Baxmayaraq ki, Rusiya əsgəri və iqtisadi baxımdan Amerika və NATO, Avropa ilə müqayisədə çox aşağıdır, ancaq Rusiya nüvə dövlətidir. Hətta Moskva belə siyasət yürüdür ki, istədiyimi edəcəyəm və mənə toxunsanız, nüvə müharibəsini başlayacağam. Bu, xalis şantajdır və çox təhlükəlidir. Putinin hesablamalarına görə, Qərb nüvə müharibəsinə cəsarət etməz. Qərb burda iqtisadi


Vəfa Quluzadə

faktorlardan istifadə edərək Rusiyanı tamamilə geri atır". **V.Quluzadə Rusiyanın daha irəli gedəcəyini zənn etmir:** "Ukrayna məsələsi həlli olmadan, sanksiyalarla üz-üzə qaldığı dönəmdə Rusiyanın belə bir addım atması gözlənilən deyil. İndi Rusiya Yeni ilə hazırlaşır, bu ərəfədə Rusiya rublu heç olmasa 45-46 müstəvisində saxlamağa çalışır. Bu şəraitdə mən əminəm ki, Rusiya nə Azərbaycana, nə MDB ölkələrinin başqa birisinə təhlükə yarada biləcək. Əksinə, Rusiya çalışacaq ki, MDB ölkələri ilə əlaqələri normallaşdırsın və onları Rusiya siyasətinin orbitinə daxil etsin. Amma Rusiyanın gəlib Cənubi Qafqazı, ya başqa yeri zəbt edəcəyini gözləmirəm".

**Politoloq Cato İnstitutunda şəxsən olduğunu, institutla bağlı məlumatlar topladığını bildirdi:** "İnstitut nümayəndəsinin dediyində əsas fikir ondan ibarətdir ki, Rusiya belə bir tədbirə əl ata bilər. Ancaq məncə, indiki şəraitdə Rusiyanın siyasəti yalnız və yalnız MDB-ni öz ətrafında toplamağa çağlışmaqdan ibarətdir. Çünki Rusiyanın MDB-nin təşkilat şəklinə salmağa iqtisadi imkanları yoxdur. Əsgəri faktordan da istifadə etmək xeyir vermir. Ona görə də Rusiya Ukraynada açıq şəkildə müharibə aparır. Təhlükəsizlik Şurasında Rusiyanın Ukraynaya ağır silahlar, artilleriya göndərməsi müzakirə olunacaq, görək nəticəsi nə olacaq. Bu əhval-ruhiyyədə, şəraitdə Mərkəzi Asiya ilə Cənubi Qafqaz hələlik rahat ola bilər. İndiki situasiyada Rusiyanın Qərbə meydan oxuması bir küçə xuliqanının dünya çempionu ilə savaşa qalxmasına bənzəyir. Sözsüz ki, bu xuliqan məğlub olacaq". **V.Quluzadə qeyd etdi ki, Rusiya Ermənistanı ondan güclü Azərbaycanla müharibəyə sürükləyə bilməz:** "Ermənistan bu addımı atmayacaq. Bunu Rusiyanın özü edə bilər. İndiki situasiyada iki cəbhədə vuruşmaq Rusiyaya sərf etmir. Bizi MDB-nin fəal iştirakçısı etmək, Avrasiya İttifaqına sürükləmək üçün müharibə ilə hədələyə bilərlər. Çünki çökən iqtisadiyyatlı Rusiyanın heç bir ölkəyə müharibədən başqa təsir etmək imkanı yoxdur".

❑ Cavìd TURAN

# Müəmmalı açıqlama



Samir SARI

**ARDNŞ Sulutəpə qəsəbəsini məhkəməyə verir. Ona görə ki, bu qəsəbə qanunsuz tikilib. Bununla belə, şirkət rəsmisi deyib ki, qəsəbənin məhkəməyə verilməsində məqsəd onun sökülməsi deyil, sakinlərə xəbərdarlıq etməkdir ki, baxın, qanunsuz yerdə yaşayırsınız, düz eləmirsiniz.**

And olsun oxuduğum və yazdığım kitablara (hazırda onların birinə əl basıram) ki, açıqlama sırf bu cürdür. Hətta hər hansı bir təhrif olmasın deyə ARDNŞ-in ictimaiyyətlə əlaqə şöbəsinin rəhbəri Nizaməddin Quliyevun Az-News.az-a dediyi sözləri olduğu kimi iqtibas edirəm.

Quliyev böylə deyib: "ARDNŞ-ə məxsus torpaqlarda evlərin sökülməsi çoxdanın söhbətidir. Biz onları məhkəməyə verməliyik. Çünki evlər qanunsuz yerdə tikilib. Yeni tikintiyə icazə verilmir. Köhnə tikililərin isə məhkəməyə verilməsi o demək deyil ki, onlar bu dəqiqə sökülür. Sakinlər bilsin ki, yeni tikintiyə icazə verilmir. Köhnə tikililərlə bağlı isə ümumi qərar veriləcək. Bunun üçün komissiya yaradılıb. Dövlət komissiyası nə qərara gəlsə, biz də həmin qərarı tanıyacağıq".

Heç demə, bu həm də bir reputasiya məsələsidir. N.Quliyev bildirib ki, ARDNŞ həmin evləri məhkəməyə verməklə öz reputasiyasını qoruyur: "Xarici audit şirkətləri həmin insanların yaşayış üçün əlverişsiz yerdə yaşadıqlarını soruşanda biz də deyəcəyik ki, bəli, biz bunu bilirik, xəbərimiz var. Şirkət də "Əlimizdə sənəd var, amma sökə bilmirik" deyəcək".

Tarixçi yazar Lorens Lokkartın yazdığı, azərbaycanlı yazıçı-tərcüməçi Nəriman Əbdürrəhmanlının tərcümə etdiyi "Tarixi Nadir" kitabını yarıya qədər də yox, başdan-başa oxumuş qəzetçi kimi mən bu açıqlamadan hələlik dəqiq bir şey başa düşməmişəm. Amma gümanlar var.

Gümanlardan biri ondan ibarətdir ki, ARDNŞ Sulutəpədən vaz keçmək istəmir, nefti qurumuş bu sahənin torpağının qiymətli olduğunu bilir və orada məskunlaşan camaatı qorxu altında saxlamağa çalışır.

İkinci güman ondan ibarətdir ki, ARDNŞ o qədər də sulu olmayan quru təpələrdə salınmış Sulutəpə qəsəbəsinin on minlərlə sakininə gücü çatmayacağını dərk edir və təzədən davaya girişmək istəmir.

Xatırlayırsınızsa, iki-üç il qabaq ARDNŞ qoçuları hücum çəkərək qollarına qolay gələn xeyli adamın evini uçurmuşdular, ara yerdə həmkarımız İdrak Dadaşovu möhkəm döymüşdülər. Google.az axtarış motorunda arasanız İdrakın İŞİD döyüşçüləri tərəfindən güllələnmiş mosullu türkmənlər kimi yerdə döşəli qalan halını nümayiş etdirən şəkillərini görərsiniz. Həmkarımızı çox döymüşdülər, "öldü" bilib əl çəkmişdilər, meyidi döyməkdən arlanmış, aralanmışdılar.

İndi belə görünür ki, ARDNŞ dərk edir ki, Sulutəpəyə cumsa yeni idrakları əzişdirməli olacaq, amma bunu istəmir. Əvəzində istəyir ki, camaat özü başa düşsün ki, üstündə yaşadıqları bu torpaq onların deyil və istənilən gün onları İdrakın gününə sala bilərlər.

Heç kim arxayın olmasın, çünki "köhnə tikililərlə bağlı ümumi qərar veriləcək", hətta "bunun üçün komissiya yaradılıb". Komissiya qərar versə ki, Sulutəpədə yaşayan idrakların evi sökülməlidir, özləri də döyülməlidir, ARDNŞ-in mühafizə xidməti bunu can-başla edəcək. Müvafiq gücləri də var, çevik polis alayı kimi bir şeydirlər, istəsələr, xeyli ev sökər, adam döyərlər.

İntəhası, bu xətalı işdir. Çünki Sulutəpə böyük yerdir, orda bəlkə də iki köçkün rayonun əhalisi qədər sakin var. Ev sökülməsi xəbəri ajiotaj yarada bilər, ondan sonra gəl hiddətlənmiş xalqın qabağında dur. Hələ parlamentin spikerinin və onun digər qohumlarının evləri də o nahiyədədir. Söksən, gərək hamısını sökəsən. Camaatın evini söküb spikerin Sulutəpənin məhz sulu hissəsindəki evini saxlasan, iğtişaş qaçılmazdır.

Bəs reputasiya necə olsun? Axı şirkətin reputasiyası var. ARDNŞ bir kərə deyib ki, o evlər qanunsuz tikilib, indi dediyindən geri dursunmu? Bu, BMT və ya NATO deyil ey, qətnaməsi icra edilməmiş qala, bu ARDNŞ-dir, reputasiyası var. Şirkət "Əlimizdə sənəd var, amma sökə bilmirik" deyəndə də xaricdən deyəcəklər ki, sizin də eləcə diliniz var...

Belə olandan sonra gərək söküntü tərəfdarları ölüb yerə girsinlər.

**P.S.** *Tərs kimi, İdrak Dadaşov da ölkədə yoxdur, hardan alsınlar bir fağır jurnalisti ki, sağdan da vursunlar, soldan da.*

# Rusiyadakı böhranın Azərbaycana təsiri qaçılmazdır

## İqtisadçı ekspertə görə, bunun altını ən çox sadə əhali çəkəcək...

**Ukrayna ilə müharibəyə görə Qərbin Rusiyaya tətbiq etdiyi sanksiyalar nəticəsində bu ölkə ciddi iqtisadi-maliyyə problemləri ilə üzləşib. Rusiya Milli Bankının son açıqlamalarına görə, rubl tarixində ilk dəfə dollara və avroya nisbətdə ən ucuz həddə düşüb.**



Dünya bazarında neftin ucuzlaşması bu ölkədəki iqtisadi böhranı dərinləşdirən əsas amil hesab olunur. Ekspertlər bu durumun Rusiyanı iqtisadi baxımdan zəifləədəcəyini iddia edərkən, Azərbaycan tərəfini orada yaşayan 2 milyondan artıq vətəndaşının durumu narahat edir. Şimal qonşumuzun qarşılaşdığı iqtisadi böhran Azərbaycana necə təsir edəcək? Rusiyada yaşayan vətəndaşlarımızın durumu necə olacaq?

**İqtisadçı ekspert Samir Əliyevə görə, Rusiya Azərbaycanın əsas ticarət tərəfdarlarından biridir və orada baş verən böhranın bizim ölkəmizə təsiri qaçılmazdır:** "Bundan əlavə, ora 2 milyondan artıq Azərbaycan vətəndaşının iş yeridir. İnsanlar qazanc əldə edib Azərbaycana, ailələrinə göndərirlər. Bu baxımdan qonşu ölkədəki iqtisadi böhran onların vəziyyətinə də təsirsiz ötüşməyəcək. Rəsmi məlumata görə, 2013-cü ildə Rusiyadan Azərbaycana 1,2 milyard dollar vəsait köçürülüb. Bu yalnız bank vasitəsilə orada çalışan həmyerlilərimiz tərəfindən ailələrinə köçürülən vəsaitdir. Qeyri-rəsmi şəkildə insanlar dostları, tanışları vasitəsilə pul göndərirlər, özləri gələndə gətirirlər. Təxmini hesablasaq, burada 2-3 milyard vəsaitdən söhbət gedir. Orada çalışanların əksəriyyəti də rayonlardan gedən insanlardır. Bu o deməkdir ki, Rusiyada vəziyyətin pisləşməsi ilk növbədə Azərbaycanın regionlarına, kəndlərinə, rayonlarına təsir edəcək. Digər tərəfdən, 2014-cü ildə rus rublu 36% ucuzlaşıb. Bu isə o deməkdir ki, Azərbaycana gələn vəsaitlərin həcmi təxminən 30% ucuzlaşıb. Məsələn, əvvəllər 1000 rubl 23 manat edirdisə, indi 16-17 manata dəyişdirilir. Bu, sadəcə, rublun ucuzlaşmasına görə olan itkidir".

**Ekspertin qənaətincə, Rusiyada iqtisadi vəziyyətin pisləşməsi biznes mühitini zəiflədəcək, bu isə orada çalışan soydaşlarımızın qazancının azalması anlamına gəlir:** "Digər tərəfdən, Rusiyada vəziyyətin pisləşməsi Neft Fondunun gəlirlərinə təsir göstərir. Təkcə bu ölkəyə sanksiyalara görə Neft Fondu təxmini qiymətləndirmələrə görə, sadəcə məzənnə fərqindən 100 milyon dollara qədər itirib. Üçüncü bir mənfi cəhəti odur ki, rus rublunun ucuzlaşması ilə bu ölkədən Azərbaycana idxalın həcmi arta bilər. Nəzərə alsaq ki, Azərbaycana Rusiyadan kifayət qədər məhsul ixrac olunur, xüsusən də süd məhsulları. Rublun məzənnəsinin ucuzlaşması Rusiyadan gələn məhsulların da ucuzlaşmasına gətirib çıxarır. Bu isə Azərbaycan bazarında yerli məhsulların rəqabətə davamlılığının azalmasına gətirib çıxarır. Alıcılar Rusiyadan gələn daha ucuz və daha keyfiyyətli məhsullara üstünlük verəcəklər və yerli məhsullar kənarda qalacaq. Bu, gələcəkdə Rusiyadan idxalın artmasına və bazarda yerli məhsulların sıradan çıxmasına gətirib çıxara bilər".

Mütəxəssisin sözlərinə görə, rublun ucuzlaşması Azərbaycandan məhsul idxalına da çox ciddi problemlər yaradacaq.

**Samir Əliyev qeyd etdi ki, bu yay Rusiya Qərb ölkələrinə sanksiya tətbiq etdiyi üçün Azərbaycanın məhsulları Rusiya bazarında yaxşı satılıb:** "Ancaq növbəti il digər ölkələrdən, İrandan, Asiya ölkələrindən daha ucuz məhsullar Rusiya bazarına gətiriləcək və Azərbaycan məhsulları rəqabətdə uduzacaq. Rusiyada vəziyyətin pisləşməsi Azərbaycanda daşınmaz əmlak bazarında da durğunluq yaradacaq. Çünki bizim daşınmaz əmlak alıcılarımızın əksəriyyəti Rusiyada işləyən azərbaycanlılar idi. Onlar külli miqdarda pulla ölkəyə gəldiyinə görə heç bir kreditə ehtiyac olmadan nəğd pulla ev alırdılar. Bir sözlə, Rusiyanın iqtisadi cəhətdən zəifləməsi Azərbaycanda da müxtəlif sahələrdə durğunluğun yaranmasına gətirəcək".

❑ Nərgìz LİFTİYEVA

# "Azərbaycanda tüstü bacalarının 99 faizi işləmir"

**Mütəxəssis:** "İran sobaları yararsız deyil, sadəcə, bizim yerli şəraitə uyğun gəlmir..."



**Havaların soyuması ilə dəm qazı kabusu yenidən insanları təhdid etməyə başlayıb. Lakin hər il bu mövzuda kifayət qədər ekspert tövsiyələri və xəbərdarlıqlar səslənsə də, faciəvi hallara gətirən eyni səhvlər təkrarlanır.**

Qaz sobalarının evin damından yarım metr hündürdə quraşdırılmalı olduğunu deyən ekspert Nüsrət Qasımov qaz cihazlarının baş hissəsi ilə birinci dirsəyinin arasında yarım metr məsafə olmasının vacibliyini vurğuladı: "Qaz sobalarını bu işin ustaları quraşdırmalıdır. Hər adam gedib qaz sobası quraşdıra bilməz. Azərbaycan xalqı qazın ancaq faydalı tərəfini görə bilir. Onun dəhşət törədən, insanların canını alan tərəfini görə bilmir. Qaz etinasızlığı, laqeydliyi heç vaxt bağışlamır. Boğulma o zaman olur ki, qaz sızması baş verir. İnsan da bu mühitdə nəfəs alır və oksigen çatışmazlığından beyin hüceyrələri ölür. Bax bu boğulmadır. Amma zəhərlənmə qazın yanma məhsullarından əmələ gəlir. Bir kub metr qazın təmiz yanması üçün 9,5 kub metr hava lazımdır. O hava olanda qaz yanarkən istiliyə, su buxarına və karbon 4 oksidə ayrılır. Bu ayrılma-yanma prosesi düzgün gedəndə alınır. Düzgün getməyəndə isə karbon 4 oksid əvəzinə karbon 2 oksid alınır. Karbon 4 oksid zəhərsiz, karbon 2 oksid isə zəhərlidir. Qazı yanılı qoyub gecə yatmaq olmaz. Qazdan boğulma və zəhərlənmə hallarının 99 faizi ya vanna, ya da yataq otağında baş verir. Qazı gecə yanılı qoyub yatırlar, külək vurub yanma məhsullarını otağa doldurur".

N.Qasımov qaz cihazlarının quraşdırılması üçün müəyyən standartların olduğunu bildirdi: "48 il qaz sahəsi ilə bağlı sistemdə işləmişəm. Tüstü bacaları, ventilyator kanalları təmizlənmir. Qaz cihazları harada gəldi quraşdırılır. Məsələn, hamamxanada qaz cihazı quraşdırmaq üçün hamamxananın təbii ventilyator kanalı olmalı və tüstü bacası işləməlidir. Qapının aşağısında da deşiklər olmalıdır. Bu şərtlər gözlənilməyəndə içəridə havanın oksigeni metanla bir yerdə yanıb qurtarır və dəm qazı əmələ gəlməyə başlayır. Bu ancaq o vaxt baş verir ki, tüstü bacaları işləmir. Azərbaycanda tüstü bacalarının 99 faizi demək olar ki, işləmir. Çünki təmizlənmir. Hamamda quraşdırılan su qızdırıcıları rübdə bir dəfə, qeyri cihazların tüstü bacaları isə ildə bir dəfə təmizlənməlidir. Ancaq bu işə baxan bir qurum yoxdur ki, əhali gedib ora müraciət etsin. Əgər belə bir qurum varsa da, onun işi görünmür. Kommunal evlərdə bu işi mənzil istismar sahələri görməlidir. Mənzil İstismar Cəmiyyəti lazımsız bir qurumdur. Ancaq ev pulu yığmaqla məşğuldur. İnsanlara tövsiyə olunur ki, tanımadıqları, lisenziyası olmayan ustaları çağırıb iş gördürməsinlər. Hərə əlinə bir açar alıb qaz ustasıyam deyib düşüb küçələrə".

**Ekspert xaricdən gələn qaz cihazlarının bizim yerli qaz şəbəkələrə uyğun gəlmədiyini də dedi:** "İrandan gələn peçlərin istilik təzyiqi 178 milli metr su tutumuna bərabərdir. Amma bizim kəmərlərdə standart 130 milli metrdir. Bəzən 130 milli metrdən də aşağı olur, bəzən nasos ustalarını çağırırlar. Onlar da bu sobaların avtomatikasını pozaraq qaz keçən yerini deşib yekəldilər. Beləcə, karbon 4 oksid əvəzinə karbon 3 hasil olur. Bu da insanların ölümünə səbəb olan hadisələrə gətirib çıxarır. Sonra da deyirlər ki, İran sobaları xarabdır. Xarab deyil. Sadəcə olaraq, bizim yerli şəraitə uyğun gəlmir. Daha sonra yas yerlərində çadırlarda, mağarlarda görmüşük ki, İran peçləri quraşdırıb onun ötürücüsünü qoyurlar bir vedrə suyun içinə. Bu, düzgün deyil. Bu kütləvi zəhərlənməyə səbəb ola bilər. Bu yaxınlarda Biləcəridə qaz sızması nəticəsində partlayış baş vermişdi. 100-200 min manat verib sexlər tikirlər. Amma 12 manat verib qaz siqnal aparatı qoymurlar ki, sızma olanda xəbər versinlər. Nəzərə alsaq ki, bir evə, bir mətbəxə 4,5 faiz metan qazı yığılır. Bu da o deməkdir ki, həmin məkanda istənilən vaxt partlayış baş verə bilər. Belə olan halda baş verəcək partlayışın zərbə qüvvəsi hər kvadrat metrə 400 tona çatır".

Mütəxəssisin sözlərinə görə, əgər qazın iyi sarımsaq iyinə bənzəyirsə və otaqda gözləriniz yaşarırsa, dərhal qazı söndürmək və təmiz havaya çıxmaq lazımdır.

❑ **Günel MANAFLI**



## Mingəçevirdə iki qardaş kanalda batdı

**Mingəçevirdə iki qardaş Yuxarı Qarabağ kanalında boğulub. APA TV-nin yerli bürosunun məlumatına görə, hadisə dünən axşam saatlarında baş verib. Ağdərə rayonundan məcburi köçkün 13 yaşlı Ömər Novruzov və onun kiçik qardaşı 11 yaşlı Ülvü Novruzov Yuxarı Qarabağ kanalının kənarında oynayarkən kiçik qardaşın ayağı sürüşərək suya düşüb.**

Böyük qardaş Ömər Novruzov kiçik qardaşı Ülvü Novruzovun suda boğulduğunu görüb, onu xilas etmək üçün kanala atılıb, nəticədə hər ikisi batıb. Fövqəladə Hallar Nazirliyinin əməkdaşları dünən axşam saatlarından hadisə yerinə cəlb edilib, qardaşların tapılması istiqamətində işlər aparılır.



## Fatmayıda qayınata gəlini bıçaqladı

**Bakıda bıçaqlanma hadisəsi baş verib. Abşeron Rayon Polis Şöbəsindən APA-ya verilən məlumata görə, hadisə Fatmayı kəndində qeydə alınıb. 1939-cu il təvəllüdlü Gülbala Rəhim oğlu Məmmədov aralarında yaranan münaqişə zəminində gəlini 27 yaşlı Büllurə Famil qızı Məmmədovanı bıçaqlayıb. Büllurə Məmmədova xəstəxanaya yerləşdirilib. Hadisəni törədən Gülbala Məmmədov tutulub.**

## Bakıda içi pulla dolu 2 seyf oğurlanıb



**Bakıda külli miqdarda pul oğurlamaqda şübhəli bilinən 2 nəfər tutulub. Bakı Şəhər Baş Polis İdarəsindən lent.az-a verilən məlumata görə, Nizami Rayon Polis İdarəsi Cinayət Axtarış Şöbəsi sentyabrın 28-i saat 20:00-dan 29-u saat 09:20-dək Q.Qarayev prospektində yerləşən mebel mağazasından açar seçmə yolu ilə içərisində 55000 manat, oktyabrın 13-də saat 08:30 radələrində, B.Nuriyev küçəsində yerləşən mağazadan pəncərənin dəmir barmaqlıqlarını sındırmaq yolu ilə içərisində 65.000 manat olan seyfləri oğurlamaqda şübhəli bilinən şəxslər müəyyən edilib. Əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakinləri 1993-cü il təvəllüdlü Kərim Kubayeviç Kubayev və 1995-ci il təvəllüdlü Renat Məhərrəmov tutulub.**


**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**








**Elan**

**Azadlıq prospekti, ABŞ səfirliyi və Nəsimi Rayon Polis İdarəsinin yanında, 12 mərtəbəli binanın 4-cü mərtəbəsində, 90kv.m.-lik 3 otaqlı mənzil satılır. Sahibindən.**
**Telefon (050) 3885035**



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 278 (5987) 13 noyabr 2014

# Qanunu pozan müğənnilər və sərt qanunlar...

## Biri deyir, “toya tələsirəm”, o biri isə mikrofonuna arxayındır

**Şou biznes nümayəndələri demək olar ki, hər gün media vasitəsilə onlara yaradılan imkan və güzəştlərdən ağızdolusu danışırlar. Bu, zaman-zaman Dövlət Yol Polisi rəsmiləri tərəfindən ciddi etiraz doğursa da, nəticə dəyişmir. Sözügedən açıqlama və bəyanatlardan bəzilərini xatırladaq.**

2010-cu ildə müğənni Rəhim Rəhimli mediaya müsahibəsində deyib ki, 13 ildir maşını sürücülük vəsiqəsi olmadan idarə edir. Yol hərəkət qaydalarını yaxşı bilmədiyini etiraf edən müğənni onu da deyib ki, yol polisləri ilə heç bir zaman problem yaşamayıb: “Heç vaxt dövlət yol polisləri ilə çətinliyim olmayıb. Əgər onlar məni saxlasalar, simamdan tanıyırlar. Axı mən məşhur adamam və bu üzdən yol polisləri hər zaman mənə hörmət edirlər. Onlar maşınımı saxlayıb məni görəndə cərimə etmədən buraxırlar. Bəlkə də onların heç ağlına gəlmir ki, Rəhim Rəhimli avtomobili sürücülük vəsiqəsiz idarə edir”.

Müğənni Rəqsanənin qızı bir müddət öncə “Polis avtomobilimi saxlayanda, anamın adını verirəm və buraxırlar” sözlərini demişdi.

**Tanınmayan müğənnilərin də zaman-zaman belə açıqlamaları olub. Məsələn, Sevinc adlı gənc müğənni də avtomobil idarə edərkən təhlükəsizlik kəmərini taxmadığını demişdi. Səbəb?** “Təhlükəsizlik kəməri taxmıram, çünki saçımı düzəltməyə problem yaradır, yol polisi gərək bizi başa düşsün”- açıqlama məhz bu cür idi.

Müğənni Mətanət Əsədova Baş Dövlət Yol Polisi İdarəsinin şöbə rəisi, polkovnik Kamran Əliyevin də iştirak etdiyi verilişdə sürət həddini aşdığını, hətta 240 km/saat sürətlə maşın sürdüyünü etiraf etmişdi.

ATV kanalındakı verilişlərdən birinə qonaq olan müğənni Səməd Səmədov isə bildirmişdi ki, sənət adamları toylara, konsertlərə tələsdikləri üçün qaydaları pozurlar: “Yol polislərinə təşəkkür edirəm. Çünki biz müğənnilər, aktyorlar, artistlər tədbirdən-tədbirə, verilişdən-verilişə tələsirik. Ona görə də yol qaydalarını pozuruq. Sağ olsunlar, görürlər və ...”

**Səməd Səmədovun çıxışının bu yerində aparıcı söhbətə müdaxilə edərək qaydaları pozduğu üçün xalq artistinə iradını bildirib:** “Necə yəni qanunları pozuruq? Bəs bayaqdan qayda-qanundan danışırsınız?”

Səməd Səmədov aparıcının bu iradını sadəcə gülüşlə qarşılayıb və verilişdə iştirak edən YAP-çı millət vəkili Aydın Mirzəzadəyə müraciət edib.


Rəhim Rəhimli


Mətanət Əsədova


Səməd Səmədov

Yadda qalan hadisələrdən biri də müğənni Elnarə ilə bağlıdır. O da qısa müddət öncə nömrəsiz maşın idarə edərkən kameralara tuş gəlib. Yol polisi onu saxlasa da, müğənni xanımın bircə zəngi ilə naməlum bir şəxs onu polisin əlindən və cərimələnmədən xilas edib.

Maraqlı məqam odur ki, müğənnilər, deputatlar özləri tərəfindən yol verilən qanun pozuntularının anlaşılan olmasını arzulayır. Onlar bu hərəkətlərinə “biz tədbirə gecikirik, bizi nəzərə almalıdılar” tipli əsaslandırmalar gətirirlər. Halbuki hansısa toy, nişan mərasimində fonoqramla iki-üç mahnı oxumaq heç də onlara üstünlük verməməlidir.

Yaxşı, bəs qanunlarda bu haqda nə deyilir? Hansı hallarda, hansı növ nəqliyyat vasitələrinə güzəşt edilir, üstün keçidə malik olurlar?

Yol Hərəkəti Qaydalarında bu barədə xüsusi maddə var. 48-ci maddə nəqliyyat vasitələrinin üstün hərəkət rejimi ilə hərəkəti və bununla əlaqədar digər sürücülərin vəzifələrinə aiddir. Sözügedən maddədə qeyd edilir:

**“I.**Üstündə «polis», «təcili tibbi yardım», «yanğınsöndürən» yazılar olan, habelə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi digər nəqliyyat vasitələri xüsusi tapşırığı yerinə yetirərkən üstün hərəkət rejiminə malikdirlər. Bu şəraitdə onların sürücüləri xüsusi işıq və səs siqnallarını qoşmalıdırlar.

**II.** Yuxarıda nəzərdə tutulmuş nəqliyyat vasitələrindən biri yaxınlaşdıqda, hərəkətdə iştirak edən digər nəqliyyat vasitələrinin sürücüləri sağa dönmə işıq göstəricisini yandırmalı, üstün hərəkət rejimi ilə gedən nəqliyyat vasitələri üçün zolağı boşaltmalı və ya yol qırağına mümkün qədər yaxın hərəkət etməli, zərurət olduqda isə nəqliyyat vasitəsini dayandırmalıdırlar. Üstün keçid hüququ olan, qırmızı və ya göy sayrışan işıq və xüsusi səs siqnalı ilə işarə verən nəqliyyat vasitəsinin müşayiət etdiyi mütəşəkkil nəqliyyat dəstəsinə daxil olmayan nəqliyyat vasitəsinin belə mütəşəkkil nəqliyyat dəstəsinə qoşularaq hərəkət etməsi qadağandır.

**III.** Yolayrıcından kənarda, tramvay yollarının yolun hərəkət hissəsi ilə kəsişdiyi yerlərdə tramvay, onun depodan çıxması hallarından başqa, relssiz nəqliyyat vasitələrinə nisbətən üstünlüyə malikdir".

Gördüyünüz kimi, qanunda da müğənnilər, siyasətçilər, deputatlarla bağlı hər hansı fərqləndirmə yer almayıb. Bu, qanun, bu isə reallıq.

❑ **Sevinc TELMANQIZI**

# Ekspertdən “hamı üçün ev” təklifi

## Samir Əliyev: “Hökumət yeni mexanizmləri də işə salmalıdır”

**İqtisadçı ekspert Samir Əliyev “hamı üçün ev” təklifi ilə çıxış edib. O, Qazaxıstan təcrübəsinə diqqət çəkərək Azərbaycanda minlərlə gənc ailənin evsiz qaldığını da qabardıb. Ekspertin sözlərinə görə, evə ehtiyacı olan əhalini ucuz və keyfiyyətli mənzillə təmin etmək o qədər də çətin deyil.**

Ekspert qeyd edib ki, Qazaxıstan prezidenti Nursultan Nazarbayev “Nurlu yol” adlı yeni iqtisadi siyasəti elan edib. Yeni proqram çərçivəsində iqtisdiyyatın müxtəlif sahələrinə iri pullar yönəldiləcək. Kiçik və orta sahibkarlığın güzəştli şərtlərlə kreditləşməsinə 552 milyon dollar (100 milyard tenqe), bank sektorunun sağlamlaşdırılmasına 1,38 milyard dollar (250 milyard tenqe), yeni investisiyaların cəlbinə 443 milyon dollar (81 milyard tenqe) və sair ayrılacaq. “Proqramda əsas diqqəti cəlb edən sahələrdən biri də yaşayış fondunun gücləndirilməsinə ayrılan vəsaitdir. Belə ki, proqram çərçivəsində dövlət sosial evlər tikərək əhalinin uzun müddətli kirayəsinə verəcəklər. Kirayə həmin evi almaq hüququ ilə veriləcək. Yəni vətəndaş əlavə pul ödəməklə həmin evi sonda ala biləcək. Bundan başqa, ipoteka kreditlərində ilkin ödəniş ləğv ediləcək, kreditin faiz dərəcəsi çox aşağı olacaq. Bunun üçün 2015-2016-cı illərdə sosial kirayə evlərinin tikintisinə 1 milyard dollara qədər (180 milyard tenqe) vəsait ayrılacaq”,- deyə ekspert Qazaxıstan dövlət başçısının hərəkətinə diqqət çəkib.


Samir Əliyev

**Onun sözlərinə görə, Azərbaycan vətəndaşının ən çox əziyyət çəkdiyi məsələlərdən biri də mənzil təminatıdır, yüz minlərlə insan faktiki olaraq evsiz qalıb:** “Müşahidələrə görə, kirayədə qalan vətəndaşlar hər ay gəlirlərinin 30-70 faizini kirayəyə yönəltmək məcburiyyətində qalırlar. Elə ailələr var ki, qazancları kirayə haqlarını ödəməyə belə çatmır. Hər il 80 minə qədər yeni ailə qurulur ki, bunların ən azı yarısının evə ehtiyacı olur. Bu isə təxminən 30-40 min evsiz deməkdir. Dövlətin ipoteka proqramı isə bu tələbatın 8-10 faizini ödəyə bilir. Ölkədə evsizlər ordusunun sayı getdikcə artır. İpoteka şərtlərinin ağırlığı bu proqramdan məhdud sayda vətəndaşın yaranmasına imkan verir. İpoteka kreditləşməsində əsas problem ilkin ödənişin olmasıdır. Adi ipotekada ilkin ödənişin həcmi 20 faiz, güzəştli ipotekada isə 15 faizdir. Bu vəsait xeyli insanı proqramdan kənarda qoyur. Buna görə də hökumət əhalinin mənzil təminatının yaxşılaşdırılması üçün mövcud mexanizmləri təkmilləşdirməklə yanaşı, dünyada tətbiq edilən yeni mexanizmləri də işə salmalıdır”.

**S.Əliyev mexanizmlərlə bağlı təkliflər də verib:** “İpoteka kreditləşməsində ilkin ödənişin aradan qaldırılması üçün İpoteka Kreditlərinin Zəmanət Fondunun təsis edilməsi vacibdir. Belə fondun yaradılması ilə bağlı ölkə prezidentinin 2007-ci il tarixli fərmanı var”. O, həmçinin “Tikinti əmanət bankları haqqında” Qanunun qəbuluna da diqqət çəkib: “Qanun ölkədə alman modeli olan tikinti-əmanət banklarının yaradılmasını təmin edir”.

**Eyni zamanda o qeyd edib ki, əhalinin mənzil təminatını yaxşılaşdırmaq və onların ucuz evlərə çıxışını asanlaşdırmaq üçün “Hamı üçün ev” xüsusi dövlət proqramının qəbulu vacibdir. O, bu proqramın 2016-2020-ci illər üçün qəbulunu təklif edib:** “Mövcud mənzil qanunvericiliyi sosial evlərin tikintisini nəzərdə tutsa da, təcrübədə həllini tapmır. Bələdiyyələrin maliyyə vəziyyəti imkan vermir. Deməli, ümid dövlətə qalıb. Bunun üçün dövlət büdcəsindən vəsait ayrılmaqla bu problemi həll etmək olar”.

❑ **RÖYA**

# ARDNŞ-in ixtisar olunmuş işçilərindən xəbər var

**ARDNŞ-də aparılan struktur dəyişiklikləri nəticəsində sərbəstləşmiş işçilərin şirkətin digər struktur bölmələrində yerləşdirilməsi prosesi davam etdirilir.**

ANS PRESS-in Dövlət Neft Şirkətinə istinadla verdiyi məlumata görə, siyahısı müəssisələr tərəfindən İnsan Resursları Departamentinə (İRD) təqdim olunmuş sərbəstləşmiş işçilərdən 134 nəfəri “sərbəstləşən işçilərin sosial dayanıqlığının təmin olunmasına dair Proqram”a qoşulub.

İş təklifi prosesində proqrama qoşulmuş sərbəstləşən işçilərdən 122 nəfərin namizədliyinə baxılmış, 112 nəfəri üçün müxtəlif vakansiyalar üzrə müsabiqələr (test və ya peşə sınaq imtahanları) təşkil edilib.

25 nəfər ixtisasartırma kurslarına cəlb olunmuş və kursu müvəffəqiyyətlə bitirərək sertifikata layiq görülüb. Proqrama qoşulan sərbəstləşən işçilərdən ümumilikdə 47 nəfər işə qəbul olunmaq üçün müəssisələrə göndərilib, 11 nəfəri isə keçid balını toplayaraq sərbəstləşən işçilərin kadr ehtiyatı bazasına daxil ediliblər.

Qeyd edək ki, İnsan Resursları Departamentində keçirilən test imtahanlarını gözləmə zalında quraşdırılmış xüsusi monitorlar vasitəsilə canlı izləmək, eləcə də şəffaflıq və aşkarlıq şəraitində keçirilən müsahibələrdə müşahidəçi qismində iştirak etmək istəyən şəxslərə bütün imkanlar yaradılır.

YENİ MÜSAVAT

Son səhifə

N 278 (5987) 13 noyabr 2014



## Boyumuz uzanacaq, beynimiz kiçiləcək, dişlərimiz töküləcək

İngiltərədə nəşr olunan "The Sun" qəzeti 1000 il sonra insan oğlunun keçirəcəyi fiziki dəyişikliklə bağlı anatomiya mütəxəssislərinin proqnozlarını yayıb. Bunlardan birincisi və ən vacibi insan boyunun uzanmasıdır. İngilis alim Garry Trainer deyib ki, insanların tibbi və qidalanma vərdişləri dəyişəcəyi üçün boylarının uzunluğu da 1.80 metrlə 2 metr arasında dəyişəcək. Bundan başqa, şişmanlığın qarşısına keçmək üçün şəkər tozu və yağ istehlakı azalacaq. Bu isə bağırsaqların qısalmasıyla nəticələnəcək. Daha bir dəyişiklik isə insanların qollarının uzanması ilə bağlıdır. Uzağa çatmaq ehtiyacının azalmasına görə qollar və əllər uzanacaq. Digital və elektron alətlərdən istifadənin yayılması ilə ağlı olaraq əl və barmaqlardakı sinir ucları çoxalacaq. Beynimiz də yaxın 1000 ildə bizi incidəcək. Yaddaş və düşünmə qabiliyyətini avtomatik maşınlar və robotlar görəcəyi üçün beyində bu funksiyaların həyata keçirən bölgələr daralacaq. Ünsiyyət danışmaqdan daha çox ifadə və mimikalarla bağlı olacağı üçün gözlər böyüyəcək, ağızlar isə kiçiləcək. Dişlərimizə gəlincə, qidalar hər keçən gün daha yumşaq hala gələcəyi, daha çox həb və sulu yeməklər favorit olduğu üçün dişlərin çoxu itəcək. İnsan bədəni daha az yeyib, daha çox enerjidən istifadə edən bir quruluşa malik olduğu halda, bunun əksini yaşayan modern insanın çiyinləri çökəcək, buxağı qatlanacaq.

# Bu sərgidə manekenlər çimir

İngiltərədə açılan bir sərgi orijinal bir üsulla diqqət çəkir. Ziyarətçilər divarlarda açılan deşiklərdən çimən manekenləri canlı olaraq izləyir. Mükafat almış sənətçi Mark Vallinger imzalı sərgi 16-cı əsrdə yaşamış məşhur rəssam Titianın tablolarından təsirlənib. "Diana" adlı yeni layihəsi üçün Twitter vasitəsilə elan verdiyini və 6 manekeni işə aldığını deyən Vallinger modellərin 2 saatdan bir yer dəyişdirdiyini söyləyib. Modellərin hamısına layihədə eyni ad verilib: "Yunan mifologiyasından gələn tanrı Diana əfsanəsində yer alan hamam səhnəsini günümüzə uyğunlaşdırmaq istədim və ortaya belə bir iş çıxdı".




# Hipnoz yolu ilə qarət edir

Türkiyənin Adana şəhərində qəribə bir oğru tapılıb. Alış-veriş mərkəzlərində gənc qadınların və qızların çantalarını, pul qablarını oğurlayan 37 yaşlı A.T adlı vətəndaş polis tərəfindən yaxalanıb. Oğru polisə ilk ifadəsində bildirib ki, onun bu əməlini oğurluq adlandırmaq haqsızlıqdır. Çünki o, insanları inandıraraq pullarını alıb. Zərərçəkən qismində ifadə verən qadınlar isə bildiriblər ki, A.T onların çantasını oğurlayıb qaçmayıb. Heç zorla pul qablarını da götürməyib: "O, bizimlə tanış olandan sonra şirin-şirin söhbət edirdi. Telefon nömrəsini verirdi, bizim nömrəmizi alırdı və zəngləşib görüşəcəyimizi deyirdi. Amma o, gedəndən sonra mən və rəfiqəm hiss etdik ki, çantamızdakı bütün pullarımız oğurlanıb". Bunu G.P adlı zərərçəkən qadın deyib.

Oğru isə bildirib ki, qadınlardan zorla heç nə almayıb, onlar könüllü şəkildə ona pullarını və zinyət əşyalarını veriblər: "Mən istedadlı bir hipnozçuyam. Bu isə suç deyil".





## Üzü yanan qadınlar üçün gözəllik mərkəzi

Pakistanın Lahor şəhərindəki varlı məhəllələrdən birində ilginc gözəllik mərkəzi fəaliyyət göstərir. Həmin mərkəzə gələn müştərilər üzləri qələvi turşusu(kislota) ilə yandırılan qadınlardır. Pakistanda əri, qayınanası, baldızı, yoldaşı oğrular tərəfindən qadınların üzünün yandırılması geniş hal alıb. Sözügedən mərkəz isə aylar boyu davam edən müalicə, estetik əməliyyatlar nəticəsində o qadınları əvvəlki hallarına qaytarmağa çalışır. Musarat Misbah adlı qadının sahib olduğu gözəllik salonu 10 ildən çoxdur ki, bu işlə məşğuldur. Bura gələn qadınların bir qayda olaraq aldıqları travmaya görə üzləri bağlı olur. Bəziləri isə ümumiyyətlə üzlərini itirmiş vəziyyətdə salona gəlirlər. Musaratın gözəllik salonuna yardım məqsədilə gələn, illər boyu müxtəlif əməliyyatlar keçirən, 150-ci əməliyyatdan sonra həyata yenidən başlayacaq müştərilər də var.





**QOÇ** - Xoş ovqat yaşamaq istəyirsinizsə, oturaq işlərə son qoyun. Yalnız bu halda ulduzların bəxşişini görə bilərsiniz. Bu gün ovqatınızı yüksəldən bir çox insanla qarşılaşacaqsınız.


**BUĞA** - Bürcünüz neqativ kosmik ahəngə kökləndiyindən özünüzdə təpər tapıb müqəddəs işlərinizdən yayınmamalısınız. Xeyirxah əməllərinizi əsirgəməyin. Şəxsi büdcənizə xəsislik etməyin.


**ƏKİZLƏR** - İstirahət etməyə vaxtınız yetməsə belə, gün ərzində savab işlərinizin sayını artırmağa çalışın. Qeybətdən, dedi-qodudan uzaq olun. Xüsusən də böyüklərə mərhəmət göstərin.


**XƏRÇƏNG** - Daxili narahatçılığınızın səbəbi qəlbinizə yaxın insanlarla lazımı münasibət qura bilməməyinizdir. Bu gün həmin qüsurları aradan qaldırın. Uzaq yola çıxmaqdan çəkinin.


**ŞİR** - Əgər ailə-sevgi münasibətlərində vəziyyət normaldırsa, digər məsələlərdə heç bir probleminiz olmayacaq. Maddi durumunuzun da yaxşılaşacağı gözlənilir.


**QIZ** - Günün birinci yarısında baş tutmayan bəzi cəhdlərinizə görə üzülməyin. Çünki sonrakı müddətdə onun əvəzi artıqlaması ilə ödənəcək. Ağlınıza gəlməyən sürprizlərə hazır olun.


**TƏRƏZİ** - Yaxın bir həftədə görəcəyiniz bütün işləri planlaşdırmaq, müzakirələr aparmaq üçün çox uğurlu vaxtdır. Bu istiqamətdə təcrübəli insanların məsləhətlərindən də yararlanmaq olar.


**ƏQRƏB** - Əsəblərinizi qoruyun ki, gün ərzində qarşınıza çıxan şanslardan lazımınca istifadə edə biləsiniz. Özünüzü ümidsizliyə sürükləməyin və daxili orqanlarınıza fikir verin.


**OXATAN** - Qarşınızda böyük işlər durur və bu təqvimdə daha çox o barədə düşünməlisiniz. Sizə kömək edə biləcək hər kəsdən yaxşı mənada istifadə etməyə çalışın. Ailədə sabitliyi qoruyun.


**OĞLAQ** - Əsas probleminiz insanlarla münasibəti normal səviyyədə tənzimləyə bilməməyinizdir. Bir qədər obyektiv olun. Bunu bacarsanız, günün ikinci yarısında mütləq əvəzini görəcəksiniz.


**SUTÖKƏN** - Bu gözəl günün mahiyyətini sizin qədər qavrayan yoxdur. Amma qavramaq azdır, bütün ruhunuzla Allah rizası üçün hərəkətə keçməlisiniz. Humanistliyinizi daha da artırın.


**BALIQLAR** - Fəaliyyət göstərdiyiniz müəssisələrə baş çəkməkdənsə, müqəddəs yerləri ziyarət edin. Xeyirxah insanlarla bir araya gəlin, küsülüləri barışdırın, zavallıları sevindirin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Beldən aşağı düşən şalvar qadağası



Amerikanın İllinoys ştatındakı Forest Qrin şəhərində kişilərin beldən aşağı sallanan şalvar geyinməsi qadağan olunacaq. Bu qadağaya şəhər polisi nəzarət edəcək. Qadağanı pozanları 750 dollar məbləğində cərimə gözləyir. Şəhərin meri Entoni Kalderon deyib ki, son bir neçə ildə şəhər sakinlərindən bəzi kişilərin bu sayaq şalvar geyinməsinə etirazları qəbul edib: "Özüm dəfələrlə beldən aşağı düşən şalvarlar geyinən yeniyetmələri görmüşəm. Bu, məni iyrəndirir. Başa düşmürəm ki, bu nəsillə nə baş verir".

Yerli mətbuatın yazdığına görə, bu qadağa şəhər sakinləri tərəfindən də dəstəklənir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100